# Çağdaş TƏHSİL

Xüsusi buraxılış / Yanvar 2019 / №04






**Təsisçi və baş redaktor:**

**Vüsal Kəlbəcərli**

***Redaksiyanın fəxri üzvləri:***

**Qənbər Qurbanov**

**Cavid Qurbanov**

***Ünvan: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı II mərtəbə***

**Sayı: 500**
**Tel: (012) 408-91-92**
**(077) 632-22-86**

***Jurnal redaksiyanın kompüter məkrəzində yığılmış, səhifələnmiş, çap olunmuşdur.***



*Azərbaycan Respublikasının Dövlət gerbi*



*Azərbaycan Respublikasının Dövlət bayrağı*

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Sözləri: Əhməd Cavadın,*

*Musiqisi: Üzeyir Hacıbəyovundur*

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üç rəngli bayrağınla məsud yaşa!**

**Minlərlə can qurban oldu!**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər,**
**Hərə bir qəhrəman oldu!**

**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**

**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə**
**Cümlə gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**



*Heydər Əliyev demişdir: "Əmin ola bilərsiniz biz çalışacağıq ki, vətəndaşların konstitutsiyadan irəli gələn hüquq və azadlıqları daimi təmin olunsun, qorunsun".*

*Ümummilli liderimiz Heydər Əliyev bütün ömrünün, həyatının ən dəyərli anlarını Respublikamızın çiçəklənməsinə həsr etmişdir. O, təhsilin, elmin inkişaf etdirilməsi məqsədi ilə bir çox yeni əmr və sərəncamlar verməklə müasir təhsil sisteminin əsasını qoymuşdur. Müəllimlərin əməyini yüksək qiymətləndirən dahi rəhbər müəllimlər haqqında yüksək fikirdə olmuşdur: "Müəllimlik çox şöhrətli bir sənətdir". Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanlı işləməyi müdrikliklə, səbrlə bizə öyrətmiş və öyrədir.*

*Dahi rəhbər Respublikamız müstəqillik əldə etdikdən sonra müəllimlik fəaliyyətini daha da gücləndirmək üçün təhsil sahəsində əsaslı islahatlar aparmışdır.Müasir tariximizin ən parlaq şərəfli səhifəsi onun adı ilə bağlıdır. Heydər Əliyev təkcə tarixə doğan yox, həm də tarixi yazan, yaradan bir şəxsiyyətdir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi əməlləri ilə əbədi yaşamaq haqqı qazanan lideri var. Uzun illərin dövlətçilik təcrübəsi, yenilməzliyi, fədakarlığı, uzaqgörənliyi, xalqına olan məhəbbəti Heydər Əliyevə əlavə güc verirdi. Müstəqil dövlətimizə rəhbərlik edən Ümumilli Liderimiz Azərbaycanı dünyanın ən nüfuzlu, dinamik inkişafda olan ölkələr sırasına yüksəltdi. Bu gün Heydər Əliyevin yolu, siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla xalqın maraqlarına, dövrün tələblərinə uyğun şəkildə davam və inkişaf etdirilir. Heydər Əliyev yolu ölkəmizin uzunmüddətli inkişafı, xalqımızın xoşbəxtlik simvoludur.*




Zərifə Əziz qızı Əliyeva (28 aprel 1923, İliç rayonu, Şahtaxtı, Naxçıvan MSSR, Azərbaycan SSR, SSRİ – 15 aprel 1985, Moskva) — Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki.

1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır. Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasında az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparmışdır.

Həkimlər Tamerlan Əliyev, Cəmil Əliyevin və musiqiçi Gülarə Əliyevanın bacısıdır. Həkim Əziz Əliyevin qızıdır. Azərbaycan Respublikasının üçüncü Prezidenti Heydər Əliyevin həyat yoldaşıdır.

Azərbaycan Respublikasının dördüncü Prezidenti İlham Əliyevin anasıdır.

Z.Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Z.Əliyeva yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir.

Zərifə xanım Əliyevanın 80 illiyinə həsr edilmiş poçt markası

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqu" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür (1981).

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

Fəxri xiyabanda məzarı üstündə tuncdan heykəli ucaldılmışdır. Bakıda Göz xəstəlikləri İnstitutu, Naxçıvan şəhər poliklinikası onun adını daşıyır. Bakının Binəqədi rayonu ərazisində adına istirahət parkı salınmışdır. Bakı və Naxçıvanda küçə Zərifə Əliyevanın adını daşıyır.Bundan başqa Yasamal rayon ərazisində Zərifə Əliyevanın adını daşıyan lisey fəaliyyət göstərir.



# Əliyev İlham Heydər oğlu

Azərbaycanın son illərdə əldə etdiyi sosial-iqtisadi, mədəni nailiyyətlər faktlarla təsdiqlənən tarixi reallıqlardır. Dahi rəhbərimiz Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyev Azərbaycan Respublikasının 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" və 2004-cü il 11 fevral tarixli "Azərbaycan Republikası regionların sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramının təşkil edilməsi haqqında" fərmanlarında ölkə iqtisadiyyatında müşahidə olunan pozitiv inkişaf meylərinin sürətləndirilməsi, regionların tarazlıq, sabit və davamlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, yeniləşməsi, yeni iş yerlərinin yaradılması kimi vacib məqamlar öz əksini tapmışdır.

Ölkə başçısının onlarla müxtəlif sərəncamları hesabına elmdə də yeniliklər yaratmaqla yeni tipli məktəblərin açılması və təmirinə, müasir tələblərə cavab verən idman və olimpiada komplekslərinin tikilməsinə, alimə, müəllimə verilən qiymətlərin reallaşmasına səbəb olmuşdur.

Prezident İlham Əliyev fundamental əhəmiyyət kəsb edən bu dövlət proqramlarını icra vəziyyəti onların yeni imkanlar və tələblər baxımından nəzərdən keçirilib təhlil olunmasını, qarşıya qoyulan vəzifələrin tam həcmdə və vaxtında yerinə yetirməsini təmin etmək üçün sonrakı mərhələdə də bir sıra əlavə sərəncamlar imzalamışdır. Həmin sərəncamlarda sənayə və kənd təsərüfatı istehsalının, sosial və istehsal infrastruktur sahələrinin dinamik inkişafının enerji tələbatını ödəmək üçün alternativ enerji mənbələrindən istifadə olunması, enerji istehsalı və təchizatının əhəmiyyətli dərəcədə artırılması, investisiya qoyuluşu üçün daha əlverişli şəraitin yaradılması, daxili və xarici sərmayənin stimullaşdırılması, investisiya qoyuluşunun başlıca istiqamətinin regionların, qeyri-neft sektorunun inkişafına yönəldilməsi, maddiləşən işgüzar fəallığın gücləndirilməsi üçün konkret tədbirlər görülməsi nəzərdə tutulmuşdur.

Ulu öndərimizin layiqli davamçısı olan İlham Əliyev cənablarının tutduğu siyasi platforması Azərbaycanımızın günü-gündən çiçəklənməsinə və iqtisadiyyatının artmasına xidmət edir.

Ümummilli liderimiz H. Əliyev daim İ. Əliyev cənablarının layiqli bir rəhbər olacağına inanmış və bu inamını ictimaiyyətlə bölüşmüşdür:

- "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İ. Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".



# Əliyeva Mehriban Arif qızı

Azərbaycan dövlətçiliyi tarixində yaddaşlarımıza yazılan böyük şəxsiyyətlər çox olmuşdur. Onların içərisində xüsusi şücaətləri, qəhrəmanlıqları, siyasətdə öz dövlətçilik prinsipləri ilə fərqlənən igid, qorxmaz, mərd diplomat qadınlarmız da olmuşdur. Belə qadın siyasətçilərimizdən biri də, XXI əsrin novator xanımı Mehriban xanım Əliyevadır.

Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təhsil sahəsinə, muğam irsimizin dünyada tanınmasına və yeni-yeni muğam mərkəzlərinin açılmasına göstərdiyi xidmətlər hər bir vətəndaşın ürəyincədir. İnşa edilən müasir məktəb binaları, mədəniyyət mərkəzləri bu dediklərimizin bariz nümunəsidir. Mehriban xanım bu gün həyata keçirdiyi missiyanın öhtəsindən layiqincə gəlir.

Mehriban xanım Əliyevanın atdığı addımlar, həyata keçirdiyi mədəni-ictimai tədbirlər xalqımızın, dövlətçiliyimizin möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyində öz layiqli yerini tapmasına doğru istiqamətlənib.

Mehriban xanımın Azərbaycan dövləti, xalqı naminə gördüyü işlər bütün bunlarla məhdudlaşmır.

Ölkənin birinci xanımı Azərbaycan qadınlarının və milli mədəni irsimizin əsl əzabkeşi kimi tanınır. Bütün bunlar YUNESKO və İSESKO-nun Azərbaycandakı xoşməramlı səfiri adını alması Mehriban Əliyevanın türk qadınına xas olan keyfiyyətləri, bacarıq və qabiliyyətlərinin nümunəsidir.

Müxtəlif müasir meyarlara görə demək mümkündür ki, Heydər Əliyev davamçıları prezident İlham Əliyev və onun xanımı Mehriban Əliyeva Azərbaycan və Türk Dünyası tarixində öz yerlərini artıq müəyyənləşdirmişdirlər. Bizdən tələb olunan odur ki, onun gördüyü işləri bəzəyib-düzəmədən, obyektiv olaraq, əsl mahiyyətini və miqyasını dərk edərək xalqa, gələcək nəsillərə çatdıraq.

Mehriban Əliyevanın simasında bu qədim ənənə türk ruhuna sədaqət hissi ilə bağlıdır. O, Azərbaycan qadınlarının Avropa ölkələrində layiqincə təmsil edir. Öz əməlləri və gördüyü işləri ilə Azərbaycan qadının mübariz olduğunu nümayiş etdirir.

# Ceyhun Əziz oğlu Bayramov



## "Diplom alan hər kəs öz biliyini sübut etməlidir"

1973-cü ildə Bakı şəhərində anadan olub. 1990-cı ildə orta məktəbi gümüş medalla bitirib. Həmin il Azərbaycan Dövlət İqtisad İnstitutuna qəbul olunub. Bu ali məktəbi iqtisadçı ixtisası üzrə fərqlənmə diplomu ilə, Azərbaycan Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirib.

1996-2000-ci illərdə Vergilər Nazirliyində müxtəlif vəzifələrdə çalışıb, 2000-2002-ci illərdə "Salans Hertzfeld & Heilbronn (Baku) Limited" şirkətində hüquqşünas, 2002-2013-cü illərdə isə "OMNİ" hüquq şirkətinin direktoru olub.

2004-2012-ci illərdə dünyanın aparıcı hüquq nəşrlərindən olan "Chambers Global", "IFLR1000" və "Legal500" tərəfindən hər il Azərbaycanda vergiqoyma və mülki hüquq sahəsində aparıcı hüquqşünaslar siyahısına daxil edilib.

2013-cü il mayın 30-dan avqustun 12-dək Təhsil Nazirliyi Aparatının rəhbəri vəzifəsində çalışıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 avqust 2013-cü il tarixli sərəncamı ilə təhsil nazirinin müavini təyin olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 aprel 2018-ci il tarixli sərəncamı ilə təhsil naziri təyin olunub.

Evlidir, 2 övladı var.



# *Həyatda yaşayan* Milli Qəhrəmanlarımız

Ölkəmizdə Milli Qəhrəman adı verilmiş şəxslərin sayı 215 nəfərdir. Onlardan yalnız 17 nəfəri sağdır. Milli Qəhrəman adı almış şəxslərin bəziləri hazırda ordu sıralarında və hüquq-mühafizə orqanlarında xidmət edir.

Qeyd edək ki, Azərbaycanın Milli Qəhrəmanı adı respublikanın ən yüksək fərqlənmə dərəcəsidir, ölkənin müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir.

Milli Qəhrəman adı Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun öz təşəbbüsü ilə və ya irəli sürülmüş vəsatətlərə əsasən verilir. Azərbaycanın Milli Qəhrəmanına xüsusi fərqlənmə nişanı - səkkizguşəli "Qızıl Ulduz" medalı təqdim edilir. Bu ad eyni şəxsə bir dəfə verilir.

Azərbaycanın Milli Qəhrəmanı qanunvericiliklə müəyyənləşdirilmiş güzəştlərdən istifadə edir. Bu adı almış şəxslər həmin addan yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhrum edilə bilərlər.

Həyatda yaşayan Milli Qəhrəmanların siyahısını təqdim edirik:

Abdullayev Maşallah Babakişi oğlu
Allahverdiyev Bəxtiyar Əzizulla oğlu
Atakişiyev İntiqam Vahid oğlu
Cəbrayılov Fəxrəddin Mövsüm oğlu
Həsənov Məhəmməd Ələsgər oğlu
Mədətov Farfiz Əlövsət oğlu
Məmmədov Mövsüm Şahin oğlu
Məmmədov Sahil Ələmdar oğlu
Quliyev Mirzə Məcid oğlu
Quliyev Mədət Qəzənfər oğlu
Quliyev Vahid Həbibulla oğlu
Quliyev Zabit Adil oğlu
Qəhrəmanov Fariz Çoban oğlu
Tağıyev Şahin Talıb oğlu
Əkbərov Rövşən Telman oğlu
Əliyev Ehtiram İsrayıl oğlu
Həmidov Şükür Nəriman oğlu



# Əfsanəvi qəhrəman Mübariz İbrahimov:

## “Şəhid olsam ağlamayın, əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim”.

Mübariz İbrahimov 1988-ci il fevralın 7-si Biləsuvarın Əliabad kəndində anadan olub.

1994-cü il şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olaraq 2005-ci ildə orada orta təhsilini başa vurub.

Həmin il həqiqi hərbi xidmətə çağırılıb. Əsgəri xidmətini Daxili Qoşunların “N” saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub.

Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Bir müddət sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət etməyə başlayıb.

Təsdiq edilməmiş versiyalara görə, 19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında döyüşdə qəhrəmancasına həlak olur.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova “Azərbaycanın Milli Qəhrəmanı” adının (ölümündən sonra) verilməsi barədə sərəncam imzalayıb. Şəhid gizirə bu ad Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə verilib.

Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyası Prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm və səmərəli danışıqların nəticəsində, Azərbaycan Respublikasının Tərtər rayonu istiqamətində Ermənistan hərbçilərinin hücumunu dəf edərkən 18 iyun 2010-cu il tarixdə şəhid olmuş Azərbaycan hərbçi İbrahimov Mübariz Ağakərim oğlunun meyiti 6 noyabr 2010-cu il tarixdə qarşı tərəfdən alınıb. Proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib.

Bir gün sonra, noyabrın 7-də şəhid qəhrəman İkinci Fəxri xiyabanda dəfn olunub.

2010-cu il noyabrın 11-də Təzəpir məscidində prezident İlham Əliyevin adından şəhid hərbçilər – Milli Qəhrəman Mübariz İbrahimov və “İgidliyə görə” medalıyla təltif olunmuş baş leytenant Fərid Əhmədovun xatirəsinə ehsan mərasimi keçirilib.

*Mübarizin son məktubu:*

“Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam – ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin”.

# Vəlizadə Xədicə

*Dünyanı istəyən elmə sarılsın, axirəti istəyən yenə elmə sarılsın.*
*Məhəmməd peyğəmbər (s.ə.s)*



Bilikdən güclü bir qüvvə yoxdur, biliklə silahlanan insan məğlubedilməzdir. Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır.

“Təhsilsiz insan, cilasız aynaya bənzər, təhsilli isə öz azadlığını özü təmin edər” deyirlər. Belə desək, bu həyatda öz azadlığını təmin etməyə var gücü ilə çalışan nümunəvi şagirdlərimizdən biri də Vəlizadə Xədicədir.

Vəlizadə Xədicə Yalçın qızı 2009-cu ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə Xankəndi rayonu Nərimanlı kənd tam orta məktəbinin 1-ci sinifinə qədəm qoymuşdur. Məktəbə öz çalışqanlığı, tərbiyəsi ilə müəllimlərinin sevgisini qazanan Vəlizadə, elə ilk gündən sinifinin fəal şagirdlərindən biridir. Dərslərində əldə etdiyi uğurlarına görə isə müəllimlərinə borclu olduğunu bildirir. Məktəb tədbirlərinin fəal iştirakçısıdır. Boş zamanlarında isə kitab oxumağı və test işləməyi çox sevir. Gələcəkdə cərrah olmağı arzulayan Vəlizadə Xədicə bu yolda səylə çalışdığını vurğulayır. Ailəsi 4 nəfərdən ibarətdir.

Vəliyeva Xədicəyə davamlı uğurlar diləyir, vətənə, millət layiq vətəndaş olmasını arzu edirik. Yolun daima açıq olsun!

# Oruczadə Şahanə

*İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz,*
*ağlın kəskin olması lazımdır.*
***Məmməd Səid Ordubadi***



Hədəf və məqsədi bəlli olan bir elm, sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində, hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Hər bir insanın qədr və qiyməti, öyrəndiyi elmin məzmun və zənginliyi ilə ölçülür. İrqindən, dinindən, yaşından asılı olmayaraq savadlı olan şəxsə hər kəs hörmət edir.

Savadlı olmaq üçün var gücü ilə çalışan, məsuliyyəti və zəhməti ilə əvvəlcə müəllimlərinin sevgisini, daha sonra onu əhatə edən insanların hörmətini qazananlardan biri də Oruczadə Şahanədir.

Oruczadə Şahanə Eyvaz qızı 2011-ci ildə dünyaya göz açıb. 2017-ci ildə Şuşa rayon 11 saylı tam orta məktəbin 1-ci sinifinə qəbul olub. Hal-hazırda isə elə həmin məktəbin 2-ci sinif şagirdidir. Məktəbə gəldiyi ilk gündən çalışqanlığı ilə müəllimlərinin sevimlisinə çevrilmiş, onların hörmətini qazanmağı bacarmışdır Şahanə. O, sinfinin ən fəal və ən yaxşı oxuyan şagirdlərindən biridir. Bütün fənlərdən yaxşı qiymətlər alır, ən çox sevdiyi fənn isə Riyaziyyat fənnidir. Boş zamanlarında isə ən çox sevdiyi məşğuliyyəti dərs oxumaq və qardaşı ilə məşğul olub, ona hərfləri öyrətməkdir. Oruczadənin ailəsi 5 nəfərdən ibarətdir.



# Verdiyeva Aytən

*“Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır"*
*Frensis Fukuyama*



Zaman keçdikcə, illər ayları, günlər ilə doldurub, geridə qoyduqca müasir dövrə doğru addımlayırıq. Elm və mərifət, tərəqqi və mədəniyyət dövründə yaşayırıq. Belə mədəniyyət dövründə özümüzü yaraşdıra bilmək üçün səadətli və irəliyə doğru addımlayaraq yaşaya bilmək üçün məktəbə gedib dərsi diqqətlə dinləməliyik, lakin sırasında bilməliyik ki, tərəqqi etmək üçün yalnız məktəbdə oxumaq kifayət etməz. Məktəbdə oxuduqlarımızı faydalı kitablar və məcmuələrin mütaliəsi ilə möhkəmləndirməliyik.

Sadaladıqlarımızı layiqincə yerinə yetirən, incəsənətə, elmə, öyrənməyə meyilli olan uşaqlarımızdan biri də Verdiyeva Aytəndir.

Verdiyeva Aytən Seymur qızı 9 avqust 2007-ci ildə Sabirabad rayonunda dünyaya göz açıb. 2012-ci ildə Qubadlı şəhər 2 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 6-cı sinif şagirdidir. Çalışqan və çox bacarıqlı şagirdidir Aytən. Bütün fənlərdən yaxşı qiymətlər alır. Onun ən çox sevdiyi fənlər riyaziyyat və ingilis dili fənləridir. Dərslərindən əlavə idman ilə də məşğul olur. Çoxlu diplom və təltifnamələrə layiq görülüb. Dəfələrlə rayonlararası və şəhərlərarası yarışlarda 1-ci yerə layiq görülüb. Ailəsi 4 nəfərdən ibarətdir.

Verdiyeva Aytənə həyat yolunda uğurlar arzu edirik.

# Qəbulov Nihat

*Oxumaq insana bilik, söhbət - hazırcavablıq,*
*yazmaq vərdişi isə dəqiqlik aşılayır.*
***Frensis Bekon***



Elmin insan həyatında rolu böyükdür. Həqiqətən də, elm öyrənib ağıl, zəka sahibi olan insanın zənginliyini heç nə ilə müqayisə etmək mümkün deyil. Elmli insan cəsarətli olur, həyatın enişli-yoxuşlu yollarında büdrəmir, qarşısına çıxan çətinlikləri asanlıqla dəf edir. Elmin gücü ilə istənilən bağlı qapıya açar tapmaq mümkündür.

Elmə, biliyə böyük önəm verən, savadın vacib amil olduğunu anlayanlardan biri də Qəbulov Nihatdır.

Qəbulov Nihat Həzi oğlu 3 iyul 2008-ci ildə Sumqayıt şəhərində anadan olub. 2014-cü ildə Ağdam rayonu 33 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 5-ci sinif şagirdidir. Bütün dərslərindən yaxşı qiymətlər alır Nihat, keçdiyi hər fənni böyük maraqla oxuyur. Ən çox sevdiyi fənnlər isə ingilis dili, riyaziyyat, Azərbaycan dili fənləridir. Məktəbə böyük həvəslə gedən, dərslərini məsuliyyətlə hazırlayan Nihat təhsil almağa başladığı ilk gündən çalışqanlığı və davranışları ilə öz müəllimlərinin sevimlisinə çevrilməyi bacarmışdır. O, üzərində əməyi olan bütün müəllimlərinə hörmət etdiyini, onların hər birini çox sevdiyini söyləyir. O, dərslərindən əlavə musiqi ilə də məşğul olur. Gözəl muğam ifaçısıdır. Nihat dəfələrlə fəxri fərman və dilplomlara layiq görülüb. Gələcəkdə də muğam ifaçısı olmaq arzusundadır. Ailəsi 5 nəfərdən ibarətdir.

Qəbulov Nihata gələcəkdə müvəffəqiyyətlər arzulayır, uğurlarının bol olmasını diləyirik. Yolun açıq olsun!



# Kərimova Aysel

*Təhsil hər zaman sahibini arxasından təqib edən bir sərvətdir.*

*Çin atalar sözü*



Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycanda da təhsilin inkişafı və xalqımızın gələcəyi üçün sağlam vətəndaşların yetişdirilməsi ümummilli məsələyə çevrilmişdir. Bu, ilk növbədə dövlətin müəyyənləşdirdiyi təhsil strategiyasının tələbidir. Hansı sahədə fəaliyyət göstərməyimizdən asılı olmayaraq hər birimiz bu ali məqsədin reallaşmasında yaxından iştirak etməliyik. Çünki xalqımızın gələcəyi və sivilizasiyalı dünyaya inteqrasiyasının yeganə yolu məhz təhsilin inkişafından keçir.

Gələcəkdə xalqa, millətə faydalı olmaq, vətəninə layiq biri kimi yetişmək üçün var gücü il çalışıb, elm, bilik, savad sahibi olmağa çalışanlardan biri də Kərimova Ayseldir.

Kərimova Aysel Asim qızı 2005-ci ildə Bakı şəhərində anadan olub.O, 2012-ci ildə 1-ci sinifə qəlub olub. Hal-hazırda Xankəndi rayonu Nərimanlı kəndinin tam orta məktəbində 7 b sinifində oxuyur . Çox məsuliyyətli və çalışqan şagird olan Aysel, bütün fənlərdən yaxşı qiymətlər alır. O, keçdiyi bütün fənləri hər zaman böyük həvəslə oxuduğunu deyir. Ayselin ən çox sevdiyi fənlər isə riyaziyyat, tarix, coğrafiya, azərbaycan-dili, ingilis-dili, fizika və kimya fənləridir. Kərimova dəfələrlə dərs ilini əla qiymətlərlə bitirdiyi üçün fəxri fərmanla təltif olunub. Bu uğurlarını isə o, hər zaman öz müəllimlərinə borclu olduğunu və onlara minnətdarlıq bildirdiyini deyir. Bacarıqlı biri olan Aysel gələcəkdə savadlı, işinin əsl peşəkarı olan bir cərrah olmaq arzusundadır.

Ailəsi 5 nəfərdən ibarət.

Biz də öz növbəmizdə Kərimova Aysələ tutduğu yolda bol-bol uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.

# Kərimli Aşura

*İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır.*

*Məmməd Səid Ordubadi*



Hədəf və məqsədi bəlli olan bir elm, sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində, hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Hər bir insanın qədr və qiyməti öyrəndiyi elmin məzmun və zənginliyi ilə ölçülür. İrqindən, dinindən, yaşından asılı olmayaraq savadlı olan şəxsə hər kəs hörmət edir.

Savadlı olmaq üçün var gücü ilə çalışan, məsuliyyəti və zəhməti ilə əvvəlcə müəllimlərinin sevgisini, daha sonra onu əhatə edən insanların hörmətini qazananlardan biri də Kərimli Aşuradır.

Kərimli Aşura Şövqi qızı 2010-cu ildə Bakı şəhərində dünyaya göz açıb. 2016-cü ildə Qubadlı rayon Çardaxlı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 2-ci sinif şagirdidir. Məktəbə gəldiyi ilk gündən çalışqanlığı ilə müəllimlərinin sevimlisinə çevrilmiş, onların hörmətini qazanmağı bacarmışdır. O, sinfinin ən fəal və ən yaxşı oxuyan şagirdlərindən biridir. Bütün fənlərdən yaxşı qiymətlər alır, ən çox sevdiyi fənn isə Riyaziyyat fənnidir. Aşura gözəl rəqsinə görə fəxri fərman almışdır. Boş zamanlarında isə ən çox sevdiyi məşğuliyyəti dərs oxumaq və rəqs etməkdir. Kərimlinin ailəsi 3 nəfərdən ibarətdir.

Kərimli Aşuraya gələcəkdə müvəffəqiyyətlər arzulayır, uğurlarının bol olmasını diləyirik. Yolun açıq olsun!

# Sadıqzadə Gülay

*İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır.*

*Məmməd Səid Ordubadi*





Hədəf və məqsədi bəlli olan bir elm, sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində, hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Hər bir insanın qədr və qiyməti, öyrəndiyi elmin məzmun və zənginliyi ilə ölçülür. İrqindən, dinindən, yaşından asılı olmayaraq savadlı olan şəxsə hər kəs hörmət edir.

Savadlı olmaq üçün var gücü ilə çalışan, məsuliyyəti və zəhməti ilə əvvəlcə müəllimlərinin sevgisini, daha sonra onu əhatə edən insanların hörmətini qazananlardan biri də Sadıqzadə Gülaydır.

Sadıqzadə Gülay Qafar qızı 1 mart 2010-cu ildə Bakı şəhərində anadan olub. 2016-cı ildə 297 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 3-cü sinif şagirdidir. Məktəbə gəldiyi ilk gündən çalışqanlığı ilə müəllimlərinin sevimlisinə çevrilmiş, onların hörmətini qazanmağı bacarmışdır Gülay. O, sinfinin ən fəal və ən yaxşı oxuyan şagirdlərindən biridir. Bütün fənlərdən yaxşı qiymətlər alır, ən çox sevdiyi fənn isə Ana dili və riyaziyyat fənləridir. Gülay getdiyi kursun imtahanlarında tez-tez yüksək nəticələr əldə edir. Onun həm də çoxlu təltifnamələri də vardır. Boş zamanlarında isə ən çox sevdiyi məşğuliyyəti kitab oxumaqdır. Abdullazadənin ailəsi 4 nəfərdən ibarətdir.

Sadıqzadə Gülaya gələcəkdə müvəffəqiyyətlər arzulayır, uğurlarının bol olmasını diləyirik. Yolun açıq olsun!

# Əliyeva Günel

*«Cənnətə gedən yollar çoxdur. Onlardan ən qısası elm və təhsildən keçənidir».*

*Həzrəti Məhəmməd*



Əliyeva Günel Fətulla qızı 26 sentyabr 1993-cü ildə Sumqayıt şəhərində dünyaya göz açıb. 1999-cu ildə Qubadlı rayon Çardaxlı kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. O, məktəbə qədəm basdığı ilk gündən dərslərinə olan həvəsi, çalışqanlığı, məsuliyyəti və nümünəvi davranışları ilə bütün müəllimlərinin sevimlisinə çevrilməyi bacarmışdır. Sinifinin fəal və ən yaxşı oxuyan şagirdlərindən olan Günel elə əvvəl gündən məktəbi müvəffəqiyyətlə başa vurub ali məktəbə qəbul olmağı qarşısına məqsəd qoymuşdur. Onun gələcəkdə ali məktəb tələbəsi olacağına heç kəs şübhə etmirdi, axı o hər zaman çox məsuliyyətli və çalışqan şagir olmuşdu. Bəli, Əliyeva Günel ona inanan hər kəsi sevindirməyi bacardı və özünün ən böyük arzusu olan ali məktəbə yüksək balla qəbul oldu. O, Azərbaycan Dövlət Pedoqoji Universitetində təhsil aldı. Könül əldə etdiyi bu uğuru müəllimləri və ona hər zaman dəstək olan ailəsə borclu olduğunu deyirdi. Onun çox gözəl əl qabiliyyəti var idi. 2011-ci ildə kitab səhifəsində "Həsrət" adlı rəsm əsəri çap olunub, elə həmin ildə daha bir kitabda Azərbaycan F.H.N. tərəfindən rəsm nominasiyası üzrə həvəsləndirici mükafata layiq görülüb.

Əliyeva Günel 2014-cü ildə avtomobil qəzası nəticəsində dünyasını dəyişib. Onun xatirəsini yaşadan doğmalarına can sağlığı, uzun ömür arzu edirik. Allah səbr versin.



Elm tükənməz xəzinədir. Bu, bir xəzinədir ki, onu sandıqda saxlamağa və qorumağa ehtiyac yoxdur. Elm bir dövlətdir ki, onu nə itirmək,nə də oğurlatmaq mümkündür. Bu səbəbdən onun qədir və qiyməti hər şeydən alidir. Çünki elm bu halda puldan və paradan zəngin, topdan və tüfəngdən ötgün, xəncərdən və qılıncdan kəskindir. Nəcabət və hörmət bu halda o kəsdir ki, onun mükəmməl sürətdə elmi və məlumatı vardır.

Bir nəfər alim şəxs elmini sərf etsə,özündən neçə yüz alim meydana gətirər. Bilikli şəxs bir şama bənzər ki, ondan neçə-neçə şamlar yandırmaq mümkündür. Bir şamın nuru başqa şamları alovlandırmaqla özü kimi çox-çox çıraqlar və məşəllər törədər.

Savadlı, bilikli olmağa var gücü ilə çalışan, ətrafını nurlandırmağa səy göstərənlərdən biri də Əliyeva Güneldir.

# Əliyeva Günay

*“Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz”.*

*Heydər Əliyev*



Hədəf və məqsədi bəlli olan bir elm, sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində, hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Hər bir insanın qədr və qiyməti, öyrəndiyi elmin məzmun və zənginliyi ilə ölçülür. İrqindən, dinindən, yaşından asılı olmayaraq savadlı olan şəxsə hər kəs hörmət edir.

Çalışqanlığı, məsuliyyəti və zəhməti ilə əvvəlcə müəllimlərinin sevgisini, daha sonra onu əhatə edən insanların hörmətini qazananlardan biri də Əliyeva Günaydır.

Əliyeva Günay Fətulla qızı 14 fevral 2005-ci ildə Sumqayıt şəhərində anadan olub. 2011-ci ildə Qubadlı rayon Çardaxlı kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hazırda elə həmin məktəbin 8-ci sinif şagirdidir. Yaxşı oxuyan, məsuliyyətlə və çox çalışqan şagirddir Günay. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Dərs əlaçısıdır. Onun ən çox sevdiyi fənlər isə riyaziyyat və tarix fənləridir. Günay öz fənn müəllimlərini də çox sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Çox gözəl əl qabiliyyəti vardır. Boş zamanlarında muncuqlarla əl işləri hazırlamağı sevir. Gələcəkdə isə müəllimə olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Əliyeva Günaya uğurlar arzu edirik. Yolun açıq olsun!

# Muradzadə Fidan

*“Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır"*
*Frensis Fukuyama*



Zaman keçdikcə, illər ayları günlər ilə doldurub, geridə qoyduqca müasir dövrə doğru addımlayırıq. Elm və mərifət, tərəqqi və mədəniyyət dövründə yaşayırıq. Belə mədəniyyət dövründə özümüzü yaraşdıra bilmək üçün səadətli və irəliyə doğru addımlayaraq yaşaya bilmək üçün məktəbə gedib dərsi diqqətlə dinləməliyik, lakin sırasında bilməliyik ki, tərəqqi etmək üçün yalnız məktəbdə oxumaq kifayət etməz. Məktəbdə oxuduqlarımızı faydalı kitablar və məcmuələrin mütaliəsi ilə möhkəmləndirməliyik.

Sadaladıqlarımızı layiqincə yerinə yetirən, incəsənətə, elmə, öyrənməyə meyilli olan uşaqlarımızdan biri də Muradzadə Fidandır .

Muradzadə Fidan Müşfiq qızı 18 may 2002-ci ildə Sumqayıt şəhərində anadan olub. 2011-ci ildə Qubadlı rayon B.Mehdiyev adına 2 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 11-ci sinif şargirdidir. Çalışqan və çox bacarıqlı şagirdidir Fidan bütün fənlərdən yaxşı qiymətlər alır. Onun ən çox sevdiyi fənlər Azərbaycan dili, tarix, riyaziyyat və coğrafiya fənləridir. Muradzadə ona dərs deyən bütün müəllimlərini çox sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Dərslərindən əlavə rəsmlə də məşğul olur. Rəsm üzrə 4 fəxri fərman, bir diploma layiq görülüb. Gələcəkdə də rəssam olmaq arzusundadır. Boş zamanlarında kitab oxumağı və şəkil çəkməyi çox sevir. Ailəsi 4 nəfərdən ibarətdir.

Muradzadə Fidana həyat yolunda uğurlar arzu edirik.



# Mikayılova Aysu

*“Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır"*
*Frensis Fukuyama*



Zaman keçdikcə illər, ayları günlər ilə doldurub, geridə qoyduqca müasir dövrə doğru addımlayırıq. Elm və mərifət, tərəqqi və mədəniyyət dövründə yaşayırıq. Belə mədəniyyət dövründə özümüzü yaraşdıra bilmək üçün səadətli və irəliyə doğru addımlayaraq yaşaya bilmək üçün məktəbə gedib dərsi diqqətlə dinləməliyik, lakin sırasında bilməliyik ki, tərəqqi etmək üçün yalnız məktəbdə oxumaq kifayət etməz. Məktəbdə oxuduqlarımızı faydalı kitablar və məcmuələrin mütaliəsi ilə möhkəmləndirməliyik.

Sadaladıqlarımızı layiqincə yerinə yetirən, incəsənətə, elmə, öyrənməyə meyilli olan uşaqlarımızdan biri də Mikayılova Aysudur.

Mikayılova Aysu Müşfiq qızı 25 iyun 2008-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə Ağdam rayon 33saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Çalışqan və çox bacarıqlı şagirdidir Aysu. Bütün fənlərdən yaxşı qiymətlər alır. Onun ən çox sevdiyi fənlər Azərbaycan dili, tarix, riyaziyyat və ingilis dili fənləridir. Mikayılova ona dərs deyən bütün müəllimlərini çox sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Elə özü də gələcəkdə müəllimləri kimi savadlı, bilikli, mərhəmətli, bir həkim olmaq arzusundadır. Dərslərindən əlavə musiqi ilə də məşğul olur. Çoxlu diplom və təltifnamələrə layiq görülüb. Boş zamanlarında dərs oxumağı və musiqi dinləməyi çox sevir. Ailəsi 4 nəfərdən ibarətdir.

Mikayılova Aysuya həyat yolunda uğurlar arzu edirik.


TƏRİFNAMƏ

Azərbaycan Respublikası

Mədəniyyət və Turizim Nazirliyi

Ağdam rayon Mədəniyyət və Turizim Şöbəsi

VERİLİR: Ağdam rayon Gülablı kənd uşaq musiqi Məktəbinin FORTEPİANO sinfi şagirdi

Mikayılova Aysu Müşfiq q.

Ondan ötrü ki, 2014-2015 tədris ilində

ƏLA MÜVƏFFƏQİYYƏT VƏ NÜMUNƏVİ ƏXLAQ GÖSTƏRMİŞDİR.

Məktəbin direktoru Hüseynova.A.

# Bağırzadə Aynur

*«Cənnətə gedən yollar çoxdur. Onlardan ən qısası elm və təhsildən keçənidir».*

*Həzrəti Məhəmməd*




Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin, ümumiyyətlə hər bir fərdin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi, həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət sonunda süquta məhkumdur.

Təhsilli, bilikli, savadlı olmağın vacibiyyətini yaxşı anlayanlardan biri də Bağırzadə Aynurdur.

Bağırzadə Aynur İlham qızı 15 fevral 2003-cü ildə Bakı şəhərində anadan olub. 2009-cu ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 10-cu sinif şagirdidir. Aynur məktəbə gəldiyi ilk gündən çalışqanlığı və davranışları ilə müəllimlərinin sevimlisinə çevrilmişdir və onların hörmətini qazanmağı bacarmışdır. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənlər isə azərbaycan dili, ədəbiyyat, kimya və tarix fənləridir. Bağırzadə bir şagird kimi əldə etdiyi uğurlarını müəllimlərinə borclu olduğunu, onlara minnətdarlıq bildirdiyini deyir və bu sırada Ülviyyə müəllimə, Xəyalə müəllimə, Zülfiyə müəllimə və İradə müəllimənin adını xüsusi olaraq qeyd edir. Boş zamanlarında şeir, roman, hekayə yazır və kitab oxumağı çox sevir. O gələcəkdə savadlı, vicdanlı, vətəninə və millətinə layiq peşəkar bir hüquqşünas olmaq arzusundadır. Ailəsi 5 nəfərdən ibarətdir.

Bağırzadə Aynura həyat yolunda uğurlar və nailiyyətlər arzu edirik.

# Quliyev Fərid

*Oxumaq insana bilik, söhbət - hazırcavablıq, yazmaq vərdişi isə dəqiqlik aşılayır.*

*Frensis Bekon*

Elmin insan həyatında rolu böyükdür. Həqiqətən də, elm öyrənib ağıl, zəka sahibi olan insanın zənginliyini heç nə ilə müqayisə etmək mümkün deyil. Elmli insan cəsarətli olur, həyatın enişli-yoxuşlu yollarında büdrəmir, qarşısına çıxan çətinlikləri asanlıqla dəf edir. Elmin gücü ilə istənilən bağlı qapıya açar tapmaq mümkündür.

Elmə, biliyə böyük önəm verən, savadın vacib amil olduğunu anlayanlarımızdan biri də Quliyev Fəriddir.

Quliyev Fərid Fərahim oğlu 20 iyun 2002-ci ildə Sumqayıt şəhərində anadan olub. 2008-ci ildə Qubadlı rayon rayonu 2 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 11-ci sinif şagirdidir. Bütün dərslərindən yaxşı qiymətlər alır. Fərid keçdiyi hər fənni böyük maraqla oxuyur. O, sinif əlaçısıdır və cudo üzrə gənclər arasında II yer tutmuşdur. Məktəbə böyük həvəslə gedən, dərslərini məsuliyyətlə hazırlayan Fərid təhsil almağa başladığı ilk gündən çalışqanlığı və davranışları ilə öz müəllimlərinin sevimlisinə çevrilməyi bacarmışdır. O, üzərində əməyi olan bütün müəllimlərinə hörmət etdiyini, onların hər birini çox sevdiyini söyləyir və bu sırada xüsusi olaraq Tanrıverdiyeva Şamama, Nəsirova Mövlanə və Mehdiyeva Rəhimə müəllimələrinin adını qeyd edir. Boş zamanlarında ən çox sevdiyi məşğuliyyəti idmanla məşğul olmaqdır. Gələcəkdə isə Fövqaladə Hallar Nazirliyində işləmək arzusundadır. Fəridin ailəsi 4 nəfərdən ibarətdir.

Quliyev Fəridə davamlı uğurlar diləyir, vətənə və millətə layiq vətəndaş olmasını arzu edirik.



# Çıraqzadə Tuncay

*«Cənnətə gedən yollar çoxdur. Onlardan ən qısası elm və təhsildən keçənidir».*

*Həzrəti Məhəmməd*



Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin, ümumiyyətlə hər bir fərdin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi, həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət sonunda süquta məhkumdur.

Təhsilli, bilikli, savadlı olmağın vacibiyyətini yaxşı anlayanlardan biri də Çıraqzadə Tuncaydır.

Çıraqzadə Tuncay Yolçu oğlu 27 iyun 2009-cu ildə dünyaya göz açıb. 2015-ci ildə Kəlbəcər rayon 18 saylı tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hazırda elə həmin məktəbin 4-cü sinif şagirdidir. Tuncay məktəbə gəldiyi ilk gündən çalışqanlığı və davranışları ilə müəllimlərinin sevimlisinə çevrilmişdir və onların hörmətini qazanmağın bacarmışdır. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənlər isə riaziyyat və informatika fənləridir. Tuncay bir şagird kimi əldə etdiyi uğurlarını müəllimlərinə borclu olduğunu, onlara minnətdarlıq bildirdiyini deyir. Tuncay dərslərindən əlavə idmanla da məşğul olur, o diplom, fərqləndirmə, yunan-roma güləşində medal, yaxşı oxuduğu üçün fərqləndirmə alıb və 420 bal yığıb. Boş zamanlarında futbol və şahmat oynamağı çox sevir. O gələcəkdə savadlı, vicdanlı, vətəninə və millətinə layiq peşəkar bir deputat olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Çıraqzadə Tuncaya həyat yolunda uğurlar və nailiyyətlər arzu edirik.

# Mikayılov Nicat

*Bilik öyrənməyi ar bilən hər kəs*
*Dünyada mərifət qazana bilməz.*

*Nizami Gəncəvi*



Elm ağlın çırağı, insanın əsl üstünlüyüdür. Həyatın, kainatın insanlararası münasibətlərin bütün sirrlərinin açarı elmdir. İnsan yaşadığı həyat boyu hər daim elmə, savada yiyələnməlidir. Elmli, savadlı insan həmişə sənət və hünər əldə edib yaxşı ad qazanmağa, özündən sonra gələcək nəsillərə xeyirli bir iz qoymağa çalışmalıdır.

İndi sizə çox istedadlı, incəsənətə həddən artıq böyük marağı olan, gənc yaşlarından böyük uğurlara imza atan Mikaylov Nicatı tanıtmaq istəyirik.

Mikaylov Nicat Müşfiq oğlu 1sentyabr 2010-cu ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə Ağdam rayonu 33 saylı tam orta məktəbin 1-ci sinifinə qəbul olub. Hal-hazırda elə həmin məktəbin 3-cü sinif şagirdidir. Çox fəal şagirddir Nicat. Məsuliyyətli və çalışqan biridir. Məktəbdə ən çox sevdiyi fənn riyaziyyat fənnidir. Bütün müəllimlərinə böyük hörməti olduğunu və onların hər birini çox sevdiyini deyir. Nicat tez-tez bilik yarışlarına da qatılır. O, qatıldığı həmin yarışlarda çoxlu təltifnamələr, diplomlarla təltif olunub. Mikaylov çox istedadlı biridir. Onun incəsənətə də çox böyük həvəsi var. Milli alətimiz sazda çox gözəl ifa etməyi bacarır. Gələcəkdə isə çox, savadlı, vətəninə, millətinə layiq bir həkim olmaq arzusunda olduğunu deyir. Nicatın ailəsi 4 nəfərdən ibarətdir.

Mikaylov Nicata gələcək həyatında uğurlar arzu edirik.



Xəzər Kurslarının
14 may 2017 tarixində keçirdiyi

TƏRİFNAMƏ

II yer

Siniflərarası "Bilik yarışmasında"
II yeri tutduğuna görə
Nicat Mikayılov Müşfiq oğluna
təqdim olunur

15.05.2017

Müdir: H. Baxşıyev

# Qasımov İlkin

*Qüvvə hər şeyi, ağıl qüvvəni sındırar.*

*Atalar sözü*



Elm sahibi insan heç bir zaman həyatını boş yaşamış hesab olunmur. Bir ərəb atalar sözündə deyildiyi kimi, "Bilikli adamın bir günü nadan adamın bütün ömrünə bərabərdir". Elmin insan həyatında rolu böyükdür. Həqiqətən də, elm öyrənib ağıl, zəka sahibi olan insanın zənginliyini heç nə ilə müqayisə etmək mümkün deyil. Elmli insan cəsarətli olur, həyatın enişli-yoxuşlu yollarında büdrəmir, qarşısına çıxan çətinlikləri asanlıqla dəf edir. Elmin gücü ilə istənilən bağlı qapıya açar tapmaq mümkündür.

Elmə, biliyə böyük önəm verən, dərslərinə böyük məsuliyyətlə yanaşan şagirdlərimizdən biri də Qasımov İlkindir.

Qasımov İlkin Cahangir oğlu 2009-cu ildə dünyaya göz açıb. 2015-ci ildə Xocavənd rayonu Nərimanlı kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hazırda elə həmin məktəbin 4-cü sinif şagirdidir. Çalışqan, məsuliyyətli və çox bacarıqlıdır İlkin. O, bütün dərslərindən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənlər ana dili və musiqi fənləridir. Qasımov ona dərs deyən bütün müəllimlərini çox sevdiyini və uğurlarını müəllimlərinə borclu olduğunu deyir. Ən çox sevdiyi məşğuliyyəti Musiqi dinləmək olan İlkin gələcəkdə də öz həyatını musiqi ilə bağlamağı düşünür. Ailəsi 4 nəfərdən ibarətdir.

Qasımov İlkin Cahangir oğlu həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.

# Quliyev Vahid

*"Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz".*

*Heydər Əliyev*

Hədəf və məqsədi bəlli olan bir elm, sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində, hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Hər bir insanın qədr və qiyməti, öyrəndiyi elmin məzmun və zənginliyi ilə ölçülür. İrqindən, dinindən, yaşından asılı olmayaraq savadlı olan şəxsə hər kəs hörmət edir.





Çalışqanlığı, məsuliyyəti və zəhməti ilə əvvəlcə müəllimlərinin sevgisini, daha sonra onu əhatə edən insanların hörmətini qazananlardan biri də Quliyev Vahiddir.

Quliyev Vahid Nahid oğlu 21 sentyabr 2005-ci ildə Sumqayıt şəhərində dünyaya göz açıb. 2010-cu ildə Qubadlı rayon B.Mehdiyev adına tam orta məktəbin 1-ci sinfinə qəbul olub. Bütün fənlərdən yaxşı qiymətlər alır, ən çox sevdiyi fənn isə coğrafiya fənnidir. Müəllimlərini çox sevdiyini qeyd edir. T.Elcan müəllimin adını xüsusi olaraq qeyd edir. Gələcəkdə memar olmaq arzusundadır. Vahidin ailəsi 5 nəfərdən ibarətdir.

Biz də öz növbəmizdə Quliyev Vahidə uğurlar və müvəffəqiyyətlər arzu edirik.

# Quliyeva Çimnaz

*«Cənnətə gedən yollar çoxdur. Onlardan ən qısası elm və təhsildən keçənidir».*

*Həzrəti Məhəmməd*



Elm tükənməz xəzinədir. Bu, bir xəzinədir ki, onu sandıqda saxlamağa və qorumağa ehtiyac yoxdur. Elm bir dövlətdir ki, onu nə itirmək,nə də oğurlatmaq mümkündür. Bu səbəbdən onun qədir və qiyməti hər şeydən alidir. Çünki elm bu halda puldan və paradan zəngin, topdan və tüfəngdən ötgün, xəncərdən və qılıncdan kəskindir. Nəcabət və hörmət bu halda o kəsdir ki, onun mükəmməl sürətdə elmi və məlumatı vardır.

Bir nəfər alim şəxs elmini sərf etsə, özündən neçə yüz alim meydana gətirər, həm də öz elm və məlumatını ziyalandırar. Bilikli şəxs bir şama bənzər ki,ondan neçə-neçə şamlar yandırmaq mümkündür. Bir şamın nuru başqa şamları alovlandırmaqla özü kimi çox-çox çıraqlar və məşəllər törədər.

Savadlı, bilikli olmağa var gücü ilə çalışan, ətrafını nurlandırmağa səy göstərənlərdən biri də Quliyeva Çimnazdır.

Quliyeva Çimnaz Nahid qızı 22 iyul 2003-ci ildə Siyəzən şəhərində anadan olub. 2010-cu il Qubadlı rayon Bəhmən Mehdiyev adına şəhər 2 saylı tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. O, məktəbə qədəm basdığı ilk gündən dərslərinə olan həvəsi, çalışqanlılığı, məsuliyyəti və nümunəvi davranışları ilə bütün müəllimlərinin sevimlisinə çevrilməyi bacarmışdır. Sinifinin fəal və ən yaxşı oxuyan şagirdlərindən olan Çimnaz elə əvvəl gündən məktəbi müvəffəqiyyətlə başa vurub ali məktəbə qəbul olmağı qarşısına məqsəd qoymuşdur. Onun gələcəkdə ali məktəb tələbəsi olacağına heç kəs şübhə etmirdi, axı o hər zaman çox məsuliyyətli və çalışqan şagird olmuşdur.

Quliyeva Çimnazın ailəsi 4 nəfərdən ibarətdir.

Biz də öz növbəmizdə Çimnaza həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.



# ŞİRƏLİYEVA HƏBİBƏ

*Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.*
*F.Bekon*



Müasir inkişaf mərhələsində ictimai həyatda elmin xüsusi çəkisi getdikcə artır. Elm həm məntiqi-epistemoloji struktur kimi, həm də mürəkkəb sosial sistem kimi tədqiqatçıların diqqətini cəlb edir. İndi ictimai həyatın elə bir sahəsi yoxdur ki, burada elmin ən son nailiyyətlərinə istinad etmədən uğur qazanmaq mümkün olsun. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, indi dünya mədəniyyət dünyasıdır, intellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır

Şirəliyeva Həbibə Ramal qızı 4 mart 2006-cı ildə Bakı şəhərində anadan olub.2012-ci il Qubadlı rayon 3 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Elmə , savada , biliyə marağı olan Həbibə elə ilk dərsə başladığı gündən yoldaşlarından fərqlənib və müəllimlərinin sevimlisinə çevrilmişdir.Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir.Məktəbdə çalışqanlığı və tərbiyyəsi ilə müəllimlərinin sevgisini qazanan Həbibə valideyinlərinin başını həmişə uca etmişdir.Onun ən sevdiyi fənlər Riyaziyyat və Azərbaycan dilidir.Həbibə deyir ki , o bütün müəllimlərini sevir lakin ən sevimli müəllimləri isə Elvira müəllimə və Arifə müəllimədir. O , ona elmi , biliyi , təhsili sevdirən müəllimlərinə həmişə borcludur.Həbibənin arzusu gələcəkdə müəllimlik peşəsinə yiyələnməkdir, buna görə də qarşısına məqsəd qoymuşdur ki, dərslərini əla qiymətlərlə bitirsin və ali təhsil ocaqlarından birinə qəbul olsun.Bütün bu istəkləri isə sırf müəllimlərinin öz peşəsinə nə cür sevgi və hörmətlə yanaşmasından irəli gəlir.Bu məsuliyyətli yolda ona ilk növbədə valideynləri dəstək olur və arzu edirlər ki, Həbibə onların əziyyətlərini yetərincə qiymətləndirsin və yüksək nəticə əldə etsin.Həbibə bu yolda əmin addımlarla irəliləyir.Bir çox nailiyyətləri olan Həbibə həm də Biologiya fənni üzrə tərifnamə almışdır.Boş vaxtlarında belə dərslərlə məşğul olur və bəzəndə rəsm çəkir. Onun ailəsi 5 nəfərdən ibarətdir.

Atası- Şirəliyev Ramal Aydın oğlu Şamaxı rayonunda anadan olub, hazırda bənna işləyir.

Anası-Şirəliyeva Aygün Məzahir qızı Gədəbəy rayonunda anadan olub və hal-hazırda həkim işləyir.

Qardaşı- Şirəliyev Anar Ramal oğlu 4-cü sinif şagirdidir.

Bacısı- Şirəliyeva Ləman Ramal qızı, 7-ci sinif şagirdidir.

Həbibənin babası Səfərov Vaqif Xəlil oğlu, əslən Qərbi Azərbaycandandır Vedi Basar ərazisindən və hal-hazırda “ ÖMÜR “ adlı kitabın üzərində işləyir.

Biz də öz jurnalımız adından Həbibəyə həyat yolunda bol -bol uğurlar arzu edirik.Səsin daim ucalardan gəlsin. Yolun hər daim açıq olsun!

# ƏLİ NƏCİZADƏ

*«Təhsil - istənilən həyat situasiyalarında düzgün hərəkət etmək qabiliyyətidir».*

***D.Karneqi***



İqtisadi cəhətdən sürətlə inkişaf edən Azərbaycanda elmin tətbiqi istiqamətlərinin inkişafı üçün böyük sosial tələbat yaranmış, yeni texnologiyalar və müasir texniki avadanlıqlardan istifadə üzrə milli kadrların yetişdirilməsi sahəsində nəzərə çarpan uğurlar əldə edilmişdir. Elmin və onun infrastrukturunun optimal təşkili və prioritet elm sahələrinin müəyyənləşdirilməsi üçün isə ilk növbədə elmşünaslığın müstəqil bir tədqiqat istiqaməti kimi inkişaf etdirilməsi tələb olunur. Elmin bütöv və dolğun mənzərəsinin yaradılmasına ehtiyac yaranır.

Bu xəzinəni tapmaq, əbədi bərəkət qaynağını əldə etməyi özünə məqsəd bilən və bunun üçün çalışanlardan biri də Əli Nəcizadədir.

Əli Nəcizadə 8 dekabr 2004-cü ildə Bakı şəhərində anadan olmuşdur.Dünyaya gəldiyi gündən ailəsinə sevgi bəxş edən Əli hamının sevimlisinə çevrilmişdir.2011-ci ildə Zəngilan rayon 32 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyan Əli hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Əli müəllimlərinin ən sevimli və məsuliyyətli şagirdlərindən biridir. Sinfinin ən fəal şagirdlərindən olan Əli çalışqanlığı ilə bir çox sinif yoldaşlarından fərqlənir.Dəqiq fənlərə , ən əsasıda Riyaziyyat və İngilis dilinə xüsusi marağı olan Əli gələcəkdə həkim olmağı arzulayır və istəyir ki ,vətəninə , millətinə layiqli xidmət göstərsin, bütün xəstələrə şəfa verə bilsin .O deyir ki, bütün müəllimlərini sevir lakin ən sevimli müəllimələri isə Kifayət müəllimə və Nazilə müəllimədir.Onun bir çox uğur və nailiyyətləri var.Əli idmanın güləş növü ilə məşğul olur və güləş üzrə keçirilən yarışda 2-ci yerə layiq görülüb. Bir şagird olaraq əldə etdiyi uğurlarına görə isə öz müəllimlərinə borclu olduğunu deyir. Boş vaxtlarında idmanla məşğul olur.Əlinin ailəsi hazırda 2 nəfərdən ibarətdir.Atası-Zabil Müqabil oğlu jurnalist olub. “Yeni Müsavat “ və 525 -ci qazetinin redaktoru , “Gün xəbər “.com -un baş redaktoru olmuşdur. O, rəhmətə gedib.Anası hal-hazırda Zəngilan rayon 32 saylı tam orta məktəbində kitabxanaçı kimi çalışır.

Biz də öz jurnalımız adından Əliyə həyatda tutduğu yolda müvəffəqiyyətlər , bol-bol uğurlar arzu edirik.Bütün arzularina çatmaq diləyi ilə... Yolun daima açıq olsun!

# HÜSEYNOVA MƏLƏKŞƏ

*Elm yarandıqdan sonra hər şey zaman-zaman onun qiyafətinə bürünüb səliqə-sahman tapdı və günlərin birində o özünə də öz donluğundan paltar biçmək fikrinə düşdü : Elm haqqında Elm yarandı.*

*Çin atalar sözü*





Elm zamanla qazanılan , kitabların , müəllimlərin , ətrafın vasitəsilə əldə edilən ucalıqdır.Əldə olunan bilik doğru istifadə olunarsa, hər zaman bizim xeyrimizə olar.Ümumiyyətlə insan demək olar ki, hər şeyi qazana bilər əldə edə bilər, lakin ən önəmlisi onu doğru-düzgün istifadə etməkdir. Elmi kiçik görməmək, onu zamanla, səbrlə əldə etmək lazımdır. Hədəfi, məqsədi bəlli olan bir elm sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir.

Bu xəzinəni tapmağı , əbədi bərəkət qaynağını əldə etməyi özünə məqsəd bilən və bunun üçün çalışanlardan biri də Hüseynova Mələkşədir.

Hüseynova Mələkşə Elnur qızı 27 aprel 2011-ci ildə Bakı şəhərində anadan olmuşdur.Dünyaya gəldiyi gündən ailəsinə sevgi bəxş edən Mələkşə hamının sevimlisinə çevrilmişdir.2017-c ildə Ağdam rayon 33 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyan Mələkşə hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Mələkşə müəllimlərinin ən sevimli və məsuliyyətli şagirdlərindən biridir. Sinfinin ən fəal şagirdlərindən olan Mələkşə çalışqanlığı ilə bir çox sinif yoldaşlarından fərqlənir.Dəqiq fənlərə, ən əsası da riyaziyyata xüsusi marağı olan Mələkşə gələcəkdə böyük bir xəstəxanada tanınmış həkim olmağı arzulayır. O deyir ki, bütün müəllimlərini sevir, lakin ən sevimli müəlliməsi isə Maya müəllimədir. Sinif əlaçısı olan Mələkşə bir şagird olaraq əldə etdiyi uğurlarına görə isə öz müəllimlərinə borclu olduğunu deyir.Boş vaxtlarında dərslərini oxuyur və rəsm çəkir. Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Hüseynov Elnur Seymur oğlu, ustadır.

Anası- Hüseynova Dinarə Elxan qızı, evdar xanımdır.

Qardaşı-Hüseynov Seymur Elnur oğlu,1-ci sinif şagirdidir.

Mələkşə hər zaman çalışır ki , ailəsinin başını uca etsin. Valideynləri də çalışır ki, əllərindən gələni ondan əsirgəməsinlər. Biz də öz jurnalımız adından Mələkşəyə həyatda tutduğu yolda müvəffəqiyyətlər , bol-bol uğurlar arzu edirik. Yolun daima açıq olsun!

# ABDULLAYEVA FATİMƏ

*Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır.Ruhun gözü min dənə adi gözdən önəmlidir , çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür.*

*PLATON*



Öyrənmək gözəlliyin sorağında gəzmək kimidir.Bu gözəlliyi kəşf edə bilmək üçünsə daşlı-kəsəkli yollarda addımlamalı , çox çətinliyə sinə gərməlisən .Lakin bunu bezmədən, yorulmadan etməlisən.Elm sirli bir aləmdir.Elm adamının yolu işığa, aydınlığa gedən yoldur.Həqiqi elmi yolla yüksələnlərin hamısı məşəqqətlərə , əzablara dözməli olub.Bizcə elmdə ən başlıca şüar " irəliyə get" olmalıdır.İnsanlar həmişə yaxşılardan nümunə götürüb daha qiymətli olanlara can atmalıdır.

Özü üçün yaxşı olanı seçib , gələcəyə doğru əmin addımlarla irəliləyən şagirdlərimizdən biri də, Abdullayeva Fatimədir.

Abdullayeva Fatimə Nicat qızı 11 avqust 2011-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır.Fatimə ailəsinin ilk göz nurudur.2012-ci ildə 33 saylı Ağdam kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur.Məktəbə başladığı ilk günlərdən dərslərə böyük həvəslə yanaşan Fatimə elə ilk günlərdən də müəllimlərinin sevimli şagirdi olmağı bacarmışdı.Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir.Məsuliyyətli və çox çalışqan şagird olan Fatimə sinfin ən fəal şagirdlərindəndir. Onun arzusu gələcəkdə layiqincə idarə edə biləcəyi bir peşəyə yiyələnməkdir.Bu yolda valideynləri onun tərəfkeşi , arxa-dayağı və ən böyük dəstəkçiləridir.Boş vaxtlarında mütaliə ilə məşğul olan Fatimə , insan beyninin istirahətini məhz kitab oxumağda görür. Yaşının az olmasna baxmayaraq , düşüncələri çox üstdə olan bir qızdır.Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Abdullayev Nicat Ədalət oğlu, usta işləyir.

Anası-Abdullayeva Hicran Eldar qızı, satıcı işləyir

Bacısı-Abdullayeva Zöhrə Nicat qızı, dərs hazırlıqlarına gedir.

Biz də öz adımızdan Fatimə balamıza gələcək həyatında uğurlar arzu edirik.Uğurlarının daha da bol olmasını diləyirik.Səsin daim yüksəklərdən gəlsin.

# Abbasov Əfqan

*“Elm tükənməz xəzinədir, o xəzinənin açarı isə soruşub öyrənməkdir.Soruşub öyrənin, çünki , soruşduqda 4 adama savab düşür: Soruşana, öyrənənə, dinləyənə, bunları sevənə.Elm Allahın yer üzündə qoyduğu əmanət, alimlər isə Allah elminin əmanətdarlarıdır.Hər kəs öz elminə əməl etsə , həqiqətdə əmanəti layiqincə sahibinə qaytarmışdır.”*



Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq.

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır. İndi dünya ölkələrinə inteqrasiyası vacib olduğu, intellekt savaşı getdiyi zamandır.

Torpaqlarımızın işğaldan azad edilməsi millətimizin azad, firavan yaşaması üçün bütün bilik və bacarıqlara yiyələnən vətəndaşlarımıza böyük ehtiyac vardır. Çünki elmi biliklərə malik bir ölkənin gücü, qüdrəti böyük olar.

Bilikdən güclü bir qüvvə yoxdur, biliklə silahlanan insan məğlubedilməzdir. Bunu dərk edib, elmə, yiyələnməyə can atan şagirdlərimizdən biri də Abbasov Əfqan Şöhlət oğludur.

Abbasov Əfqan Şöhlət oğlu 28 avqust 2003-ci ildə Sank-Peterburq şəhərində dünyaya göz açıb. 2009-cu ildə Ağdam rayonunun 33 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Əfqan elə həmin məktəbin 10-cu sinif şagirdidir. Çalışqan, bacarıqlı, məsuliyyətli şagird olan Əfqan dərslərində çox məsuliyyətli biri olmuşdur. Onun ən sevdiyi fənlər Riyaziyyat və Azərbaycan dili, ən sevdiyi müəllimləri isə Vüsalə müəllimə və Azadə müəllimədir. O, sinifin ən fəal və ən savadlı, əlaçı şagidlərindən biridir. Əfqanın arzusu gələcəkdə proqramist olmaqdır. O, boş vaxtlarında dedektiv kitabları oxumağı daha çox sevir. Əfqan hər zaman çalışqanlığı və bacarığı ilə seçilib. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Abbasov Şöhlət Əfqan oğlu maşın ustasıdır.

Anası Abbasova Kübra Mehman qızı dərzidir.

Bacı Abbasova Aygün, Abbasova Gülnar.

Biz də öz jurnalımız adından Əfqana gələcək həyat yolunda uğurlar arzu edirik. Səsin daima ucalardan gəlsin, yolun açıq olsun!

# Ağəli Eminov

*Elm faktikidir. Faktiki olmaq demək elmin müşahidə edilə bilən faktlara söykənməsi deməkdir.*

*Elm məntiqidir. Araşdırma nəticələndirmənin öz içərisində tutarlı olması lazımdır.*

*Elm ümumiləşdiricidir. Elm tək-tək faktlarla deyil fakt növləriylə məşğul olur.*

*Elm obyektivdir. Elmi məlumat, fərdin fərdi fikirindən müstəqildir.*

*Elm tənqidçidir.*



Ağəli Eminov Seymur oğlu 5yanvar 2005-ci ildə Ağsu rayonunda dünyaya göz açıb. 2010-cu ildə 71 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almışdır. Hal-hazırda isə elə həmin məktəbin 8-ci sinif şagirdidir. O, bütün dərslərdən yaxşı qiymətlər alır. Ağəli çox çalışqan və məsuliyyətli şagirddir. Onun ən çox sevdiyi fənn Fizika fənnidir. Ağəli ona dərs deyən bütün fənn müəllimlərini çox sevir, xüsusilədə Güllü müəlliməni xüsusi olaraq qeyd edib. O, dərslərindən əlavə idmanla da məşğul olur. İdman üzrə keçirilən yarışlarda Bakı üzrə 3-cü, Respublika üzrə isə 2-ci yer tutub. Ağəlinin arzusu gələcəkdə məşhur idmançı olmaqdır. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Seymur Eminov Ağəli oğlu 3iyun 1966-cı ildə dünyaya göz açıb, ticarətçidir.

Anası Eminova Kifayət Ağasəlim qızı 9 oktyabr 1978-ci ildə anadan olub, evdar xanımdır.

Bacısı Eminova Samirə Seymur qızı Biznes Kooperasiya kollecində təhsil alır, Eminova Nigar Seymur qızı.

Biz də öz jurnalımız adından Ağəliyə həyat yolunda bol-bol uğurlar arzu edirik. Səsin ucalardan gəlsin, yolun açıq olsun!

# Davudzadə Nəzrin

*“Elm tükənməz xəzinədir, o xəzinənin açarı isə soruşub öyrənməkdir.Soruşub öyrənin, çünki , soruşduqda 4 adama savab düşür: Soruşana , öyrənənə, dinləyənə, bunları sevənə.Elm Allahın yer üzündə qoyduğu əmanət, alimlər isə Allah elminin əmanətdarlarıdır.Hər kəs öz elminə əməl etsə , həqiqətdə əmanəti layiqincə sahibinə qaytarmışdır.”*

Elm təbiət, cəmiyyət və insan təfəkkürü haqqında obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyət növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanmasıdır. Elm təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onlar arasındakı əlaqəni tapır, və nəticəni müəyyən edə bilir. Hər hansı bir elm haqqında təsəvvür bu elmin obyektini, predmetini, metodunu və prinsipini öyrənməkdə başlayır.

Davudzadə Nəzrin Elçin qızı 14 sentyabr 2009-cu ildə Sumqayıt şəhərində dünyaya göz açıb. 2015-ci ildə Qubadlı rayonu İ. Məmmədov adına A.Mollu kəndinin tam orta məktəbində 1-ci sinifə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 4-cü sinif şagirdidir. Nəzrin çox çalışqan və məsuliyyətli şagirddir. Ailəsi hər zaman maddi və mənəvi olaraq Nəzrinin arxasında dayanıblar. O, uğur qazansın deyə çalışıblar. Atası sürücü işləməklə ailəsinin bütün ehtiyaclarını ödəyir. Anası isə evdar xanım olduğundan Nəzrinin dərsləri və tərbiyyəsi ilə xüsusi məşğul olur. Nəzrin tez bir zamanda şagirdlərin və müəllimlərin rəğbətini qazanır. Onun ən çox sevdiyi fənn Azərbaycan dili və Riyaziyyat fənnləridir. Müəllimlərdən isə Vəfa müəlliməni xüsusi olaraq qeyd edir. Məktəblərdə keçirilən bilik yarışlarında Nəzrin təltifnamələrlə mükafatlandırılıb. O, dərslərindən əlavə boş vaxtlarında rəqslə



də məşğul olur. Nəzrinin arzusu gələcəkdə Tibb universitetinin tələbəsi olmaqdır. Ailəsi 6 nəfərdən ibarətdir.

Atası Davudov Elçin Mirzəməmməd oğlu

Anası Həmidli Əzizə Ağayər qızı.

Bacısı Davudzadə Gülarə 2007-ci ildə dünyaya göz açıb, Davudzadə Nərmin 2011-ci ildə anadan olub, Davudzadə Əkbər 2012-ci ildə dünyaya göz açıb.

Biz də öz jurnalımız adından Nəzrinə həyat yolunda bol-bol uğurlar arzu edirik. Səsin daima ucalardan gəlsin, yolun açıq olsun!

# Əbdülrəhimli Solmaz

*Elmin hüdudları üfüq xəttinə oxşayır:*
*biz ona nə qədər yaxınlaşsaq, o bizdən bir o qədər uzaqlaşır.*
*Pyer Buast*



Elm-insan təfəkkürü haqqında obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyəti növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanması təşkil edir. Elm təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edə bilir.

Əbdülrəhimli Solmaz Qadir qızı 7 iyul 2007-ci ildə  Qadir qızı Ağdam rayonunun Mahrırlı kəndində dünyaya göz açıb. 2012-ci ildə Cəbrayıl rayonu 22 saylı ümumi orta məktəbin 1-ci sinifində təhsil almışdır. Hal-hazırda isə elə həmin məktəbin 6-cı sinif şagirdidir. Ailəsi hər zaman maddi və mənəvi olaraq Solmazın arxasında dayanıblar. O, uğur qazansın deyə çalışıblar. Atası usta işləməklə ailəsinin bütün ehtiyaclarını ödəyir. Anası isə evdar xanım olduğundan Solmazın dərsləri və tərbiyyəsi ilə xüsusi məşğul olur. Solmaz tez bir zamanda şagirdlərin və müəllimlərin rəğbətini qazanıb. Onun ən çox sevdiyi fənlər Rus dili, Tarix, Azərbaycan dili, Riyaziyyat, Coğrafiya, Biologiya, Fizika, Ədəbiyyat, Musiqi, İnformatika və Həyat Bilgisi fənləridir. Müəllimlərdən isə Səadət müəllimə, Nuranə müəllimə, Reyhan müəllimə, Esmira müəllimə və Roza müəlliməni xüsusi olaraq qeyd edir. O, çox çalışqan və məsuliyyətli şagirddir.Nizami tədris məktəbinin təşkil etdiyi sınaqlarda Solmaz 1-ci və 3-cü yer tutmuşdur.  O, dərslərində bacarıqlı olmağı ilə yanaşı həm də rəsm çəkmək, şeir oxumaq, və əlavə tapşırıqlar etməyi çox sevir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Əbdülrəhimov Qadir Akif oğlu7 mart 1977-ci ildə Ağdam rayonunun Mahrızlı kəndində anadan olub.

Anası Əbdülrəhimova Rəsmiyyə Əlösət qızı 20 iyul 1976-ci ildə Ağdam rayonunun Mahrızlı kəndində anadan olub.

Qardaşı Əbdülrəhimov Vüsal Qadir oğlu 13 may 2003-cü ildə Ağdam rayonunun Mahrızlı kəndində dünyaya göz açıb, məktəblidir, 10-cu sinif şagirdidir.

Solmazın arzusu gələcəkdə öz müəllimləri kimi ağıllı,savadlı şagirdlər yetişdirmək, elm və bilikləri onlara mükəmməl şəkildə öyrətməkdir. Biz də inanırıq ki, Solmaz qarşısına qoyduğu məqsədə nail olmaq üçün çox çalışsa, arzusunda olduğu kimi müəllim olmaq istəyinə çatacaq.

# Elvin Mənsimov

*Elmin hüdudları üfüq xəttinə oxşayır:*
*biz ona nə qədər yaxınlaşsaq, o bizdən bir o qədər uzaqlaşır.*
*Pyer Buast*



Biliyin, elmin insan həyatında tutduğu yerin məna və əhəmiyyəti haqqında hələ XII əsrin dahi şairi N. Gəncəvi yazırdı:

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz.

Biz elmi-texniki tərəqqinin çox vüsət alıb tüğyan etdiyi bir əsrdə yaşayırıq. Bu belə bir əsrdi ki, cəmiyyətimizin onun iqtisadi, mədəni, mənəvi inkişaf elm və biliklə xarakterizə olunur. Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə li, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vaxitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır. Təhsilin, biliyin insan həyatında önəmini görən və özünü qabaqcıl bir insan kimi yetişdirmək istəyən Elvin Mənsimov da bu yolda irəliləyənlərdəndir.

Mənsimov Elvin 19 fevral 2005-ci ildə Bakı şəhərində dünyaya göz açıb. 2010-cu ildə 71nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal- hazırda isə həmin məktəbin 8-ci sinifində təhsil alır. Elvin çox çalışqan və məsuliyyətli şagirddir. O, qısa müddət ərzində müəllimlərinin diqqətini çəkmiş və sevgisini qazanmışdır. Elvin dərslərində çox məsuliyyətli biri olmuşdur. Onun ən şox sevdiyi fənlər Fizika və Riyaziyyat , ən sevdiyi müəllimləri isə Güllü müəllimə, Arzu müəllimə, və Səbinə müəllimədir. Elvinin arzusu gələcəkdə məşhur idmançı olmaqdır. O, idman üzrə yarışlarda bir çox nailiyyətlər əldə etmişdir ki, Türkiyə, Gürcüstan və Nalçik şəhərində keçirilən yarışlarda 1-ci və 2-ci yer qazanıb. Elvinin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Mehman Mənsimov Əliheybət oğlu sürücü işləyir.

Anası Mənsimov Xəyalə Həzrətsultan qızı dayə işləyir.

Bacısı Mənsimov Məsmə Mehman qızı.

Biz də öz jurnalımız adından Elvinə həyat yolunda bol-bol müvəffəqiyyətlər arzu edirik. Səsin daima ucalardan gəlsin, yolun açıq olsun!

# Həsənzadə Gövhər

*Dünyada nə qədər kitab var belə*
*Çalışıb , əlləşib gətirdim ələ.*
*Oxudum , oxudum , sonra da vardım,*
*Hər gizli xəznədən bir dürr çıxardım.*

*NİZAMİ GƏNCƏVİ*



Elm - yeni biliklərin əldə edilməsidir. Elm - haqqın, gerçəkliyin axtarılması yolunda alim fəaliyyətidir. Elmi nəticələr insanlar və nəsillər tərəfindən mənimsənilləndə biliyə çevrilir. Bilik - zaman və məkandan asılı olmayaraq bəşəriyyətin tarix boyu topladığı haqq və gerçəkliklərin toplumudur. Bilik - tarixi təcrübə ilə təsdiqlənən elmi nəticələr toplumudur. Elmi nəticələr zaman keçdiycə kütləviləşəndə biliyə çevrilir. Elm - bəşəri və milli hadisədir. Elmdə alim tədqiqatın subyektidir.

Həsənzadə Gövhər Bəyoğlan qızı 16 avqust 2006-cı ildə Gülüstan qəsəbəsində anadan olub. 2012-ci ildə Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə hamin məktəbin 7-ci sinif şagirdidir. Gövhər məktəbə gəldiyi ilk gündən çalışqanlığı və davranışları ilə müəllimlərrinin sevimlisinə çevrilmişdir və müəllimlərin hörmətini qazanmağı bacarmışdır. O, bütün fənnlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə Rus dili, Kimya, Fizika, İngilis dili, Tarix, Biologiya və Həyat bilgisi fənləridir. Həsənzadə bir şagird kimi əldə etdiyi uğurlarını müəllimlərinə borclu olduğunu,onlara minnətdarlıq bildirdiyini deyir və bu sırada Svetlana müəllimə,Güllü müəllimə, Rəhman müəllim, Günel müəllimə, Gülnar müəllimə, Mədinə müəllimə və İlqar müəllimin adını xüsusi olaraq qeyd edib. Gövhər keçirilən olimpia oyunlarında iştirak edib. O, boş vaxtlarında kitab oxumağı, musiqiyə qulaq asmağı sevir. Gələcəkdə arzusu müəllim olmaqdır. Ailəsi 6 nəfərdən ibarətdir.

Atası Bəyoğlan 1 yanvar 1968-ci ildə anadan olub, müəllimdir.

Anası Xəyalə 1 oktyabr 1983-cü ildə Kəlbəcər rayonunda anadan olub, müəllimədir.

Bacısı Məryəm və Əsmər, məktəblidir.

Qardaşı Ümid 3 yaşı var.

Həsənzadə Gövhərə həyat yolunda uğurlar və nailiyyətlər arzu edirik. Yolun açıq olsun!

# Hüseynzadə Zöhrə

*"İnsanların ən fəzilətlisi elm öyrənəndir".*
*Məhəmməd Peyğəmbər*

İctimai şüurun formalarından biri olan elmin inkişafı idrakın uğur qazanmasında yaxından iştirak edir. Əslində müasir həyatı və insanın mədəniyyətini elmsiz təsəvvür etmək olmaz. Elm- biliyin ali forması olub, canlı və cansız təbiətin bütün hadisələrini, adamların maddi və mənəvi fəaliyyətini əhatə edir. Elmin köməyi ilə nəinki tarixin nəticələri qiymətləndirilir, cari hadisələr təhlil edilir və eyni zamanda gələcək proqnozlaşdırılır. Elmi öyrənmənin təməli məktəbdən başlayır. Birinci sinif şagirdi olan Zöhrə balamız da elm həyatına ilk qədəmlərini bu il qoymuşdur. O, 2018-ci ildə 297 nömrəli tam orta məktəbin 1d sinifində oxuyur.

Hüseynzadə Zöhrə Elnur qızı 21 aprel 2012-ci ildə Bakı şəhərində anadan olub. Məktəbə getdiyi ilk gündən hamının sevimlisinə çevrilən Zöhrə çox ağıllı qızdır. O, dərslərini çox yaxşı oxuyur. Sinifin ən fəal əlaçı şagirdlərindən biridir. Onun ən sevdiyi fənn Azərbaycan dili, ən sevimli müəllimi isə Xalidə müəllimədir.

Atası Hüseynov Elnur polisdir. Anası Hüseynova Əfsanə Elşad qızı isə evdar xanımdır. Qardaşı Fərəməzin 2 yaşı var, bacısı Nur isə 6 aylıqdır.






Zöhrə boş zamanlarında dərsləriylə məşğul olur. Qalan zamanlarında kitab oxuyur, bədii təfəkkürünü inkişaf etdirir. Onun gözəl rəsm çəkmək qabiliyyəti vardır. Vaxt tapdıqca rəsm çəkir.

Ən böyük arzusu həkim olmaq olan Zöhrə balamıza həyat yolun uğurlar arzu edir, müvəffəqiyyətlərinin bol olmasını diləyirik. Arzu edirik ki, hər zaman valideynlərinin fəxri olasan!



# İbrahimli Rza

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz!*
*Hər uca rütbədən biliniz fəqət,*
*Alimin rütbəsi ucadır əlbət!*

*Nizami Gəncəvi*



İnsan dünyanın ən ali varlığıdır. İnsanı aliləşdirən amillərdən ən əsası əməkdir. Ən qədim zamanlardan müasir dövrlərə qədər nəzər salsaq, görərik ki, insanlar öz zəhmətləri ilə nələrə qadir olublar. Müasir dövrdə tibbin, texnikanın, təhsilin bu səviyyəyə gəlib çatması insan əməyinin bəhrəsidir. İnsanın bacarmadığı iş demək olar ki, yoxdur. Fiziki və ya zehni, hər hansı bir işə başlamamışdan əvvəl o, adama çox çətin gəlir. Lakin işə başlayandan sonra insan işə necə qalib gəldiyini görür.Dünyanın müxtəlif yerlərində olan tarixi abidələri, qəsrləri, imarətləri yada salaq. Bunların çoxu qədim zamanlarda tikilib. Bəs texnikanın olmadığı bir vaxtda insanlar bunları necə inşa ediblər? Bu abidələr uzun illər ərzində yüzlərlə, minlərlə insanların zəhməti nəticəsində yaranıblar.

İnanın ki, hər hansı bir işlə məşğul olmayan və heç nə ilə maraqlanmayan insan cəmiyyətdə istədiyi yeri tuta bilmir. Bir işi başa çatdırmaq üçün zəhmət çəkirsinizsə, bu vaxt sizə yeni qapılar açılır. Bu qapılardan keçərək daha yüksək mövqelərə çata bilərsiniz.

Əmək insanı həm ucaldır, həm də inkişaf etdirir. İşlə məşğul olan insan heç kimə möhtac olmur. Belə insana ətrafdakı insanlar həmişə hörmət və pərəstiş edirlər. Onlardan biri də İbrahimli Rzadır.

İbrahimli Rza Pərviz oğlu Bakı şəhərində dünyaya göz açıb. 2012-ci ildə 71 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. İndi isə hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Rza çox savadlı və çalışqan şagirddir. O, tədris olunan bütün fənləri sevir, xüsusilə də Biologiya, Həyat Bilgisi, İngilis dili, Riyaziyyat və Azərbaycan dili fənləridir. O, riyaziyyat fənnindən keçirilən olipyadalarda 1-ci yer tutmuş, xoş niyyətli və nəcib keyfiyyətlərə görə tərifnamələrlə mükafatlandırılmışdır. Rza ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir, xüsusilə də Zəkiyyə müəllimə, Zərifə müəllimə, Afət müəllimə və Yasəmən müəlliməni xüsusi olaraq qeyd edib. O, dərslərindən əlavə boş vaxtlarında bədii kitab oxumağı xoşlayır. Rzanın arzusu gələcəkdə polis olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası İbrahimov Pərviz İbrahim oğlu 17 mart 1974-cü ildə Kəlbəcər rayonunda dünyaya göz açıb.

Anası İbrahimova İlhamə Əvəz qızı 27fevral 1975-ci ildə Kəlbəcər rayonunda anadan olub.

Qardaşı İbrahimli Pərvaz Pərviz oğlu 19 aprel 2008-ci ildə Bakı şəhərində anadan olub.

Biz də redaksiyamız adından Rzaya müvəffəqiyyətlərinin bol olmasını və hər zaman ona inanan şəxslərin fəxri olmasını arzu edirik. Səsin daima yüksəklərdən gəlsin!

# İsgəndərov Ramin

*Sən ancaq öyrənməklə ucalarsan.*

*Əhvədi Marağai*

Elmi əməyin bölünməsi və birliklərinin yaranması, elmi müəssisələr, sınaq və laborator avadanlıqları, elmi-tədqiqat işlərinin metodları dərketmə və kateqoriya aparatı, elmi informasiya sistemi, əvvəldən toplanılmış bütün biliklər məcmusu kimi şərt və dərketmə komponentlərini özündə birləşdirən elm yarandığı gündən insanların əmək məhsuldarlığının artırılması və bunun sayəsində onun rifahının yaxşılaşdırılmasına xidmət etmişdir. Elmlə məşğul olan şəxslərə "alim" deyilir. Onlar insanlar arasında öz bacarığı, savadı və düşüncəsi ilə fərqlənənlərdir.

İsgəndərov Ramin Qurban oğlu 1978-ci ildə Ermənistan SSR-nin Vardeniş rayonunun Yenikənd kəndində kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1984-cu ildə Yenikənd kənd orta məktəbinin 1-ci sinifinə qədəm qoyub. Dağlıq Qarabağ hadisələri ilə əlaqədar 1988-ci ilin dekabr ayında doğma yurddan didərgin düşərək Azərbaycan respublikasına ailəlikcə pənah gətirmişdir. 1989-cu ilin fevral ayından Xanlar rayonunun Gəncə qəsəbəsində məskunlaşaraq təhsilini Gəncə qəsəbə orta məktəbində təhsilini davam etdirmişdir. 1995-ci ildə həmin məktəbin 11-ci sinifini bitirmişdir. 1988-ci ildə Gəncə Dövlət Pedoqoji Universitetinin Mühəndis Pedoqoji fakültəsinə daxil olmuşdur. 2002-ci ildə universiteti bitirmiş və 2000-ci ildən YAP-ın üzvü olmuşdur.

2002-ci ilin sentyabr ayının 1-dən Gəncə qəsəbə orta məktəbində ixtisası üzrə əmək təlimi müəllimi üzrə işləmişdir.

Biz də öz jurnalımız adından Ramin müəllimə həyat yolunda uğurlar arzu edirik. Yolun açıq olsun!

# İsmayıl Kərimli

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz!*
*Hər uca rütbədən biliniz fəqət,*
*Alimin rütbəsi ucadır əlbət!*

*NİZAMİ GƏNCƏVİ*




Savadlı, təhsilli insanla ünsiyyət qurarkən heç yorulmursan. Əksinə onun söhbətindən bir rahatlıq, sakitlik duyursan. Müsahibindən bəzən heç oxumadığın, eşitmədiyin tarixi faktlar, gözəl kəlamlar eşidirsən. Bunlar insan ruhunu qidalandırır, rahatladır. Bilik insanı güclü edir. Çünki bilikli insan həm də ziyalı olur. Ona görə ki, belə insanlar yaşadığı cəmiyyətin bütün keyfiyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini, dinini təbliğ edir. Bu cür insanlar eyni zamanda yaşadığı müasir cəmiyyətin nail olduğu texnologiyanın, müasir avadanlıqların və onlarla davranış mədəniyyətinə də sahiblənirlər. Bunu dərk edib, elmə, yiyələnməyə can atan şagirdlərimizdən biri də İsmayıl Kərimlidir.

İsmayıl Kərimli Xəqani oğlu 5 noyabr 2007-ci ildə Gəncə şəhərində dünyaya göz açıb. 2013-cü ildə Kəlbəcər rayonunun 2 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. O, elə həmin məktəbin 5-ci sinif şagirdidir. İsmayıl məktəbə gəldiyi elə ilk gündən öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağı bacarmışdır. İsmayıl çox çalışqan və məsuliyyətli biridir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə İngilis dili, Rus dili və Riyaziyyat fənləridir. Lakin o, bütün fənlərin əhəmiyyətini dərk edir və hər bir fənnə məsuliyyətlə yanaşır. İsmayıl ona dərs deyən bütün fənn müəllimlərini çox sevdiyini deyir, onlara böyük hörmət bəslədiyini vurğulayır. Bu sırada Xəyalə müəllimənin adını xüsusi olaraq qeyd edib. İsmayıl dərslərindən əlavə idmanla da məşğul olur. O, gələcək də polis olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Anası Kərimov Gülnarə Əli qızı 1975-ci ildə Kəlbəcər rayonunda anadan olub. İşləmir.

Qardaşı Kərimli Nizami 16 fevral 2005-ci ildə, Kərimli Samir isə 5 noyabr 2007-ci ildə dünyaya göz açıb.

Biz də öz jurnalımız adından İsmayıla həyat yolunda bol-bol müvəffəqiyyətlər arzu edirik. Səsin ucalardan gəlsin!

# Məhərrəmov Murad

*Elm ilə dost olsan bu dünyada sən,*
*Sudan gəmisiz keçə bilərsən.*

*M.Əvhədi*

Elmin nailiyyətləri və özü intellektual qabiliyyətlərin əlaqəsi kimi daha çox vətəndaşların xidmətinə keçə bilir. İnsan haqqında elmi təsəvvürlərə, elmi axtarışların xüsusiyyətləri və elmin təbiəti haqqında, elm və cəmiyyətin, elm və fəlsəfənin, elmi bilik və etiqadın münasibəti haqqında biliklərə maraq artır. Hazırda elm üzvi formada özünə rasional maddi amilləri daxil edən ictimai fəaliyyətin mürəkkəb və rəngarəng forması olmuşdur. Bütün bunlara axmayaraq, elmə dünya haqqında bilik sistemi kimi baxmaq lazımdır. Bu zaman elmi biliyin obyekti rolunda təbiətdə və cəmiyyətdə baş verən bütün hadisə və proseslər çıxış edir. Buna görə də elm öyrənmək, biliyimizi daha inkişaf etdirmək şərtdir. Şagirdimiz Murad da yeni biliklər öyrənməyə can atanlardandır.

Məhərrəmov Murad Rəşad oğlu 25 fevral 2010-cu ildə paytaxt şəhər Bakıda dünyaya gözlərini açmışdır. Məktəbə ilk dəfə 2016-cı ildə getmiş Murad 54 nömrəli tam orta məktəbin 3-cü sinifində oxuyur. Məktəbə başladığı ilk gündən müəllimlərinin və sinif yoldaşlarının sevimlisinə çevrilmişdir. Göstərdiyi fəallığına və savadına görə o, sinifində seçilmiş şagirdlərdən biridir. Murad öz savadını yalnız məktəbdə dərslərində deyil, məktəb xaricində də sübut etmişdir. O, qatıldığı "Zirvə" kursunun sınaq imtahanlarında yüksək nəticələr toplamışdır. Murad bütün fənlərini sevir və yaxşı oxuyur. Riyaziyyat fənninə isə onun xüsusi marağı vardır. Ən sevdiyi müəllimməsi isə Gülsəba müəllimədir. O, daima öyrəndiklərinə görə müəllimlərinə minnətdardır.

Atası Məhərrəmov Rəşad Aslan oğlu11 may 1978-ci ildə anadan olub, mühəndisdir. Anası Qəhrəmanova Cəmilə Şahabbas qızı 9 mart 1989-cu ildə anadan olub, riyaziyyat müəllimidir. O, həmişə oğlu Murada dərslərində kömək olur. Muardın bir bacısı və bir qardaşı var. Bacısı Məhərrəmova Nəzrinin 5 yaşı, qardaşı Məhərrəmov Əlinin 7 yaşı var.

Murad dərslərilə məşğul olduğu qədər futbol oynamağı





da çox sevir. Boş zamanlarında futbol oynayır və bu sahədə özünü inkişaf etdirir. Ən böyük arzusu məktəbi bitirib, tələbə adını qazanmaq və polis olmaqdır. Xalqını, millətini mərd şəkildə qorumağı özünə məqsəd qoyan Murada biz də bu yolda uğurlar arzu edirik. Yolun daima açıq olsun!



# Məmmədli Sevinc

*Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür.*

*Platon*



Məmmədli Sevinc Çingiz qızı 2018-ci ildə Bakı şəhərində dünyaya göz açıb. O, 2016-cı ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 3-cü sinif şagirdidir. Az yaşlı olmasına baxmayaraq olduqca məsuliyyətli biridir. O, bütün dərslərindən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə Texnologiya fənnidir. Sevinc ona dərs deyən bütün müəllimləri çox sevir, xüsusilə də Mətanət müəlliməni. Boş vaxtlarında rəsm çəkir, fiqurlar düzəldir, və şahmat oynamağı çox sevir. O,şahmat üzrə keçirilən yarışlarda Bakı üzrə 1-ci və 2-ci yer tutub. Dərs ilini ela qiymətlərlə bitirdiyi üçün fərqlənmə diplomu ilə mükafatlandırılıb. Sevincin arzusu gələcəkdə müəllim və həkim olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Məmmədov Çingiz Ədalət oğlu 6 avqust 1981-ci ildə Naxçıvanda anadan olub, neft akademiyasını qurtarıb.

Anası Məmmədova Günel Natim qızı 2 noyabr 1984-cü ildə Naxçıvanda anadan olub.

Bacısı Məmmədova Mədinə Çingiz qızı.

Sevincə uğurlar arzu edir, ona vətəninə, millətinə layiq gənc olmağı və seçdiyi sənətdən asılı olmayaraq işinin peşakar olmağını diləyirik.

# Nağılı Emin

*Elmdir cümlə-sənətin dəyəri,*
*Elmsiz sənətin nədir dəyəri?*

*Abbas Səhhət*



Elmin gücü həyat həqiqətinə sadiq qalmaqda, yaşayaraq, inkişaf edərək zirvələr fəth etməsindədir. Çünki elmin yolu mübarizə yoludur. Müdriklər nahaq yerə deməyiblər, sərvət ticarətsiz, elm mübarizəsiz, hakimiyyət siyasətsiz ola bilməz. Bu reallığı elm fədailəri daha aydın hiss edirlər. Elə alim var ki, uzun illərin bəhrəsi olan çox faydalı ixtira və kəşfinin işıq üzü görməsi üçün illərlə əzab çəkir. Ətrafdakı paxılların, gözü götürməyənlərin saxta, elmlə əlaqəsi olmayan hücumlarına məruz qalır. Artıq bir həqiqətdir ki, tənqid azadlığı və fikir mübadiləsi olmadan heç bir elm inkişaf edib müvəffəqiyyət qazana bilməz!

Şagirdimiz Emin də gələcəkdə uğur və nailiyyətlərə imza atmaq üçün elm yolunda əmin addımlarla irəliləyir. O, dekabrın 4-ü 2009-cu ildə Sumqayıt şəhərində anadan olub. Təhsil həyatına ilk dəfə 2016-cı ildə qədəmlərini qoyan Emin Çaytumas liseyinə getmişdir. Hal-hazırda həmin liseydə 3-cü sinifdə öz təhsilini davam etdirir. O, sinif əlaçısıdır. Çoxlu bilik yarışlarında iştirak etmiş və nailiyyətlər toplamışdır. Müəllimləri hər zaman onunla fəxr edir və onun daha da böyük nailiyyətlər əldə etməsi üçün əllərindən gələni edirlər. Emin də eyni zamanda bütün müəllimlərini sevir və hər zaman öyrəndiklərinə görə onlara minnədarlığını bildirir. Onun ən sevimli müəlliməsi M.Ülviyyə müəllimə, ən çox sevdiyi fənn isə Riyaziyyatdır.

Ailənin tək övladı olan Eminin ən böyük dəstəkçisi ailəsidir. Atası Nağılı Elmar Qabil oğlu fəhlə işləyir. Anası Həsənova Sayad Telman qızı əyləncə mərkəzində müdir kimi fəaliyyət göstərir.

Boş zamanlarında dərslərilə məşğul olmaqla yanaşı o, rəqs etməyi də çox sevir. Gözəl rəqs etmək qabiliyyəti olan Eminin rəqsi ətrafındakıların da xoşuna gəlir. O, böyüyəndə haqqı-ədaləti qoruyan hakim olmaq istəyir. Biz də redaksiyamız adından Emin balamıza gələcək həyatında uğurlar arzu edirik. Hər zaman valideynlərinin, müəllimlərinin fəxri olasan!

# Novruzova Fidan

*Elmdir cümlə-sənətin dəyəri,*
*Elmsiz sənətin nədir dəyəri?*

*Abbas Səhhət*



Bilik - insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusu. Bilik mühəndisliyi baxımından bilik formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.

Novruzova Fidan Anar qızı 13 oktyabr 2005-ci ildə Bakı şəhərində dünyaya göz açıb. O, 2010-cu ildə71 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 8-ci sinif şagirdidir. Çalışqan, bacarıqlı, məsuliyyətli şagird olan Fidan dərslərində çox məsuliyyətli biri olmuşdur. Onun ən sevdiyi fənnlər Azərbaycan dili, İngilis dili və Biologiya, ən sevdiyi müəllimlər isə İlahə müəllimə, Sofia müəllimə və Zərifə müəllimədir. Fidan dərslərindən əlavə boş vaxtlarında şəkil çəkməyi daha çox sevir. O, rəsm üzrə keçirilən yarışlarda 1ci yer tutmuşdur. Fidanın arzusu gələcəkdə rəsm sərgisi düzənləmək və Modelyer olmaqdır. Ailəsi 6 nəfərdən ibarətdir.

Atası Novruzov Anar Arif oğlu 1983-cü ildə Bakıda dünyaya göz açıb. Hal-hazırda foto dizayner işləyir.

Anası Novruzova Nailə İsrafil qızı 1984-cü ildə Xaçmaz rayonunda anadan olub, işləmir, peşəsi ibtidai sinif müəlliməsidir.

Qardaşı Novruzov Rəsul Anar oğlu 2014-cü ildə anadan olub.

Bacısı Novruzova Ləman Anar qızı 2007-ci ildə anadan olub, məktəblidir, 5-ci sinif şagirdidir. Novruzova Nərmin Anar qızı 2010-cu ildə dünyaya göz açıb, məktəblidir, 3-cü sinif şagirdidir.

Biz də öz jurnalımız adından Fidana gələcək həyatında bol-bol uğurlar arzu edirik. Səsin ucalardan gəlsin, yolun açıq olsun!





# Məhərrəmov Alı

***Sən ancaq öyrənməklə ucalarsan.***

***Əhvədi Marağai***

Elmi biliyin maddi qüvvəyə çevrilməsi təbiətlə mübarizədə insanı daha güclü edir. Lakin insanın maddi gücü-qüdrəti artdıqca bu gücü düzgün yönəldə bilmək üçün onun mənəvi kamillik səviyyəsi də yüksəlməlidir. Zira elm əhli olmaq, hələ kamal əhli olmaq deyil. Kamalın qələbəsi üçün yüksək elmi-texniki səviyyə ona uyğun gələn yüksək mənəvi-əxlaqi səviyyə ilə tamamlanmalıdır.

Məhərrəmov Alı  Vəli oğlu 25 noyabr 1960-cı ildə Daşkəsən rayonu  Qıyıxlı kəndində, fəhlə ailəsində anadan olmuşdur. 1960-cı ildə Qıyıxlı kəndindəki on iki illik məktəbinə daxil olmuşdur. Həmin məktəbin 10-cu sinifini əla qiymətlərlə qurtarmışdır. 1977-ci ildə Daşkəsən S. Vurğun adına savxoza fəhlə təyin edilmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin 39 nömrəli qərarına əsasən, S.Vurğun adına savxoza 2 yerə bölünmüşdür və yeni Nizami adına savxoz yaradılmışdır. Ona görə də Nizami adına savxozda fəhləliyini davam etdirmişdir. 1980-cı ildə Hərbi xidmətə çağrılmış və 1982-ci ildə hərbi xidmətdən tərxis olunmuşdur. 1980-cı ildə, Qazax rayon KTT-na daxil olub, həmin Texnikumunun tam kursunu 1985-ci ildə, Baytarlıq ixtisası üzrə qurtarmışdır. 1985-ci ildə təyinat üzrə Nizami adına savxoza mühəndis vəzifəsinə təyin edilmişdir. Ştat ixtisara düşdüyünə görə 1989-cu ildə tutduğu vəzifədən azad edilmişdir. 1986-cı ildə YDPİ-na daxil olub. Həmin İnstitutun tam kursunu 1992-ci ildə, Riyaziyyat, Fizika və İnformatika əsasları ixtisası üzrə qurtarmışdır. 1987-ci ildə Daşkəsən rayonu Qıyıxlı kəndində ixtisası üzrə müəllim işləmiş və ərizəsi əsasında rayon müəllimliyindən azad edilmişdir. 1993-cü ildən Xanlar rayonu Gəncə qəsəbə orta məktəbində müəllim kimi fəaliyyətini davam etdirir.

Biz də öz jurnalımız adından Məhərrəmov Alıya həyat yolunda bol-bol uğurlar arzu edirik. Yolun açıq olsun!

# Paşayeva Fidan

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz!*
*Hər uca rütbədən biliniz fəqət,*
*Alimin rütbəsi ucadır əlbət!*

*Nizami Gəncəvi*



Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər.

Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır.

Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişaf templəri, onun iqtisadi inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır.

Bilik bir gücdür. Elm öyrənmək böyük bir zəhmətdir. J.J.Russo demişdir: "Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır."

Müasir elm və tərəqqi elə bir səviyyəyə gəlib çatmışdır ki, nə orta, nə də ali məktəblər insana onun həyatının axırına kimi bütün bilik və elmi verə bilmir. Məhz buna görə də hər bir insan daim axtarışda olmalı, yeniliklərlə tanış olub, yeni bilik əldə etməlidir.

Paşayeva Fidan Fikrət qızı 27 may 2004-cü ildə  Bakıda dünyaya göz açıb.2010-cu ildə Ağdam rayonu 149nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 9-cu sinif şagirdidir. Çox çalışqan və məsuliyyətli şagirddir Fidan. O, bütün fənlərdən əla qiymətlər alır. Ən çox sevdiyi fənn Coğrafiya, Azərbaycan dili, Biologiya, İngilis dili və Ədəbiyyat  fənləridir. O, bir şagird kimi gördüyü uğurları müəllimlərinə borclu olduğunu bildirir. Ailəsi 3 nəfərdən ibarətdir.

Atası Fikrət Paşayev
Anası Cəmilə Aslanova

Paşayeva Fidana həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik. Yolun açıq olsun!

# Qasımzadə Saday

*Elmin hüdudları üfüq xəttinə oxşayır:*
*biz ona nə qədər yaxınlaşsaq, o bizdən bir o qədər uzaqlaşır.*
*Pyer Buast*




Elmin insan həyatında, cəmiyyətin inkişafında rolu barədə çox deyilib, çox yazılıb. İslam dünyasının böyük simalarından olan Həzrəti Əlinin ölüm ayağında oğlu Həzrəti Həsənə verdiyi birinci nəsihət belə idi: «Zənginliyin ən böyüyü ağıldır». Həqiqətən də elm öyrənib ağıl, zəka sahibi olan insanın zənginliyini heç nə ilə müqayisə etmək mümkün deyil. Elmli insan cəsarətli olur, həyatın enişli-yoxuşlu yollarında büdrəmir, qarşısına çıxan çətinlikləri asanlıqla dəf edir. Elmin gücü ilə istənilən bağlı qapıya açar tapmaq mümkündür.

Qasımzadə Saday Saleh oğlu 3 noyabr 2006-cı ildə Sumqayt şəhərində dünyaya göz açıb. 2013-ü ildə Qubadlı rayonu H.Quliyev adına Texniki fənnlər təmayüllü Çaytumas məktəb liseyində 1-ci sinifə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 6-cı sinif şagirdidir. Saday çox məsuliyyətli və çalışqan şagirddir. Onun ən çox sevdiyi fənnlər Riyaziyyat və Cografiya fənləridir. Saday müəllimlərin hörmətini qazanmağı bacarmışdır və ən çox sevdiyi müəllimləri Gülnar müəllimə, Səlvi müəllimə, Dürdanə müəllimə və Vüqar müəllimədir. Saday dərslərdən əlavə idmanlada məşğul olmağı çox sevir. O, qaydasız döyüşlər üzrə yarışlarda iştirak edib. Sadayın arzusu gələcəkdə Dövlət Təhlükəsizlik xidmətində işləməkdir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Qasımov Saleh Arif oğlu 24 avqust 1979-cu ildə anadan olub, işləmir.

Anası Qasımov Ramilə Xudaverdi qızı 15 dekabr 1987-ci ildə anadan olub, evdar xanımdır.

Bacısı Qasımlı Əsnad Saleh qızı məktəblidir, 2-ci sinif şagirdidir.

Biz də öz redaksiyamz adından Sadaya gələcək həyatında uğurlar arzu edirik. Yolun açıq olsun!

# Röyal Məmmədzadə

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz!*
*Hər uca rütbədən biliniz fəqət,*
*Alimin rütbəsi ucadır əlbət!*

***Nizami Gəncəvi***




İslam dinində elm o qədər əhəmiyyətli hesab olunur ki, elm öyrənmək hamıya vacib edilmişdir.Bu haqda İslam peyğəmbəri həzrəti Məhəmməd (s) buyurur : "Elm öyrənmək hər bir müsəlmana vacibdir". Hədisin mənası elm öyrənməyin başqa dini vaciblərlə bir rədifdə qərarlaşmasına və hansısa xüsusi bir qrupa aid edilmədiyinə (həm kişilərə və həm də qadınlar) işarə edir. İslami ədəbiyyatda bütün əsrlər boyu "elm öyrənməyin vacibliyi" və ya bu kimi fəsillər mövcud olmuşdur. Hətta İslamda ən önəmli sayılan Qədr gecələrində də ən yaxşı və ən fəzilətli əməlin məhz elm öyrənmək, elmi diskusiyalar aparmaq olması hesab olunur.

Məmmədzadə Röyal Zaur oğlu 2005-ci ildə Bakı şəhəri Sabunşu rayonunda anadan olub. Röyal 2011-ci ildə Elxan Misirxanov adına 71 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 8-ci sinfində təhsil alır. O, məktəbə gəldiyi elə ilk gündən öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağı bacarmışdır. Röyal çox çalışqan və məsuliyyətli biridir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn Kimya, Tarix, Fizika və Bilogiya fənləridir.O, məktəblərdə keçirilən yarışlarda Tarix fənni üzrə 3-cü yer tutmuşdur. Röyal ona dərs deyən bütün fənn müəllimlərini çox sevdiyini vurğulayır. Röyal dərslərindən əlavə idmanla da mışğul olur. O, Gəncədə keçirilən yarışlarda cudo üzrə 2 dəfə 1-ci yer,Türkiyədə isə 2-ci yer tutmuşdur. Röyal boş vaxtlarında kitab oxumağı çox sevir. Onun arzusu gələcəkdə hərbiçi olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Məmmədov Zaur Zakir oğlu 24 dekabr 1975-ci ildə Goranboy rayonunda anadan olub, ustadır.

Anası Məmmədova Gülzar Məlikheydər qızı 6 mart 1980-cı ildə Bakı şəhərində anadan olub, evdar xanımdır.

Bacısı Məmmədzadə Azadə Zaur qızı 31 iyulda 2003-cü ildə II Zabrat qəsəbəsində anadan olub, məktəblidir, 10-cu sinif şagirdidir.

Biz də öz jurnalımız adından Röyala gələcək həyatında müvəffəqiyyətlər arzu edirik.

# NEYMƏTZADƏ AYTAC

*Elmin hüdudları üfüq xəttinə oxşayır:*
*biz ona nə qədər yaxınlaşsaq, o bizdən bir o qədər uzaqlaşır.*
*Pyer Buast*



Yer üzərində ən böyük varlıq insandır.İnsan da isə ən böyük sərvət elmdir.Elmsiz insan çıraqsız ev kimidir. İnsanın başını həmişə onun savadı, biliyi , təhsili ucaldır.Elmli , savadlı insan həmişə sənət və hünər əldə edib yaxşı ad qazanmağa , özündən sonra gələcək nəsillərə xeyirli bir iz qoymağa çalışır.Bütün bunlara ancaq elmin gücü ilə yiyələnmək olar.Elm sahibi insan heç bir zaman həyatını boş yaşamış hesab olunmur.Bir ərəb atalar sözündə deyildiyi kimi " Bilikli adamın bir günü , nadan adamın bütün ömrünə bərabərdir."Bütün bu deyilənləri özünə həyat şüarı götürən şagirdlərimizdən biri də Aytacdır.

Aytac Neymətzadə Nahid qızı 1 yanvar 2011-ci ildə anadan olmuşdur.2017-ci ildə Ağdam rayon 33 saylı kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur.Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir.Sinfinin fəal şagirdlərindən olan Aytac, məktəbə qədəm basdığı ilk gündən müəllimlərinin hörmətini qazanmağı bacarmışdır.Bütün fənlərə həvəslə yanaşan Neymətzadə Aytac Ana dili fənnini sevir.O müəllimlərinə daima borclu olduğunu vurğulayır və Maya müəlliməyə , Gülnarə müəlliməyə də xüsusi minnətdarlığını bildirir.Aytacın arzusu gələcəkdə ona bu elm, təhsil, bilik yolunda irəliləməyə kömək edən və ona bu peşəni sevdirən müəllimləri kimi savadlı, bilikli bir müəllimə olmaqdır.Sinif əlaçısı olan Aytac boş vaxtlarında mütaliə edir, kitabları oxuyur.Aytacın ailəsi 5 nəfərdən ibarətdir.

Atası-fəhlə ,anası isə evdar xanım olan Aytacın 2 bacısı da var və ondan yaşda kiçikdirlər.

Biz də öz növbəmizdə Aytaca uğurlar diləyir və gələcək nailiyyətlərinin daha da bol olmasını arzulayırıq.Daima valideynlərinin və müəllimlərinin fəxri olasan.Səsin daima yüksəklərdən gəlsin.



# Tağızadeh Şahin

*Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz!*
*Hər uca rütbədən biliniz fəqət,*
*Alimin rütbəsi ucadır əlbət!*

*Nizami Gəncəvi*




Elm, əsrlər sürən elmi məlumat çıxarma müddətində öz xüsusiyyətini, ənənələrini və standartlarını qoymuşdur. Bu müddətdə, müasir elmin dörd əhəmiyyətli xüsusiyyəti meydana gəlmişdir: çeşitlilik, davamlılıq, yenilik və ayırd edilmə. İndi bunları qısaca şərh edək müxtəliflik: Elmi iş heç kimin tək əlində deyil, heç kimin icazəsinə bağlı deyil. Elm hər kəsə açıqdır. İstəyən hər adam, ya da təşkilat elmi işlə məşğul ola bilər. Dil, din, irq, ölkə tanımaz. Belə olduğu üçün maraqlandığı mövzular müxtəlifdir; bu mövzulara sərhəd qoyula bilməz.

Tağızadeh Şahin Pərviz oğlu 17 aprel 2008-ci ildə Bakı şəhərində anadan olub. Şahin 2014-cü ildə E. Misirxanov adına 71nömrəli tam orta məktəbin 1-ci sinifində təhsil almışdır.Hal-hazırda isə Şahin həmin məktəbin 5-ci sinif şagirdidir. O, məktəbin ən qabaqcıl və nümunəvi şagirdlərindən biridir. Ona tədris olunan bütün fənləri sevir, xüsusilə də Azərbaycan dili, Riyaziyyat və İngilis dili fənnləridir. Şahin ona dərs deyən bütün müəllimlərini sevir və onlara böyük hörmət bəslədiyini vurğulayır, bu sırada Sevda müəllimə, Samirə müəllimə və Sofia müəlliməni xüsusi olaraq qeyd edir. Şahin dərslərindən əlavə idmanla da məşğul olur. Boş vaxtlarında şahmat oynamağı və kitab oxumağı çox sevir. Şahinin arzusu gələcəkdə pilot olmaqdır. Ailəsi 6 nəfərdən ibarətdir.

Atası Tağızadeh Pərviz Mirzəbala oğlu 23 iyul 1971-ci ildə dünyaya göz açıb, mebel ustasıdır.

Anası Tağızadeh Xalidə Rafiq qızı 15 iyul 1981-ci ildə anadan olub, evdar xanımdır.

Bacısı Bahar Tağızadeh, Zöhrə Tağızadeh, Rəhimə Tağızadeh.

Biz də redaksiyamız adından ona bu yolda uğurlar arzu edirik və ümid edirik ki, gələcəyin ən peşəkar pilotu olacaq.

# Verdiyev Eltun

***Elm bir qıfıldır və bu qıfılı aça biləcək yeganə açar sualdır. Mömin iki halda diqqətli olmalıdır: bir qəzəblənəndə gərəkdir ki, qəzəbi onu həqiqətən sapdırmasın və ikinci qəzəbi soyuduqda isə bu onu yanlışlığa sövq etməsin.***

***Cəfər Sadiq***



Elm insan zəkasının ən yüksək məhsulu olub, onun qüvvə və qüdrətinin təcəssümüdür. Elmə nisbətən din daha əvvəl pratikanın ən aşağı inkişaf səviyyəsində, təbiət və ictimai qüvvələrin insan üzərində hökmran olduğu bir vaxtda meydana gəlmişdir, o zaman insanlar bu qüvvələri dərk edib, özlərinə tabe etmək iqtidarında deyildirlər. Elmin meydana gəlməsi isə, əksinə, insan praktikasının malik olduğu qüdrətin bilavasitə artması nəticəsidir. Elmin inkişafı, təbiət və cəmiyyətin kor- koranə qüvvələri üzərində insanların hökmranlığının artması bir- birilə qarşılıqlı surətdə əlaqədardır. Buna görə də elmlə dinin bir- birinə əks olduğunu nəzərə alaraq elmə belə bir tərif vermək olar: elm praktikanı ümumiləşdirən, ondan alınan və onunla yoxlanılan obyektiv surətdə həqiqi bilik sistemidir. Elmi öyrənmək və öyrəndiklərimizdən istifadə etməyi bacarmaq lazımdır, eləcə Eltun kimi.

Verdiyev Eltun Mobil oğlu 2005-ci ilin 14 yanvarında Gəncə şəhərində anadan olub. Təhsil həyatına ilk addımlarını 2011-ci ildə atan Eltun 11 saylı Kəlbəcər tam orta məktəbinin birinci sinifinə başlamışdır. O, çox ağıllı, istedadlı və tərbiyəli uşaqdır. Dərslərini yaxşı oxuyan Eltun həm sinif yoldaşlarının, həm də müəllimlərinin hörmətini qazanmışdır. Onun ən çox sevdiyi fənnlər Coğrafiya və Fizikadır. Ən sevdiyi müəllimləri isə Ədalət müəllim və Aynurə müəllimədir. O, bütün müəllimlərinə hörmət edir və öyrəndiklərinə görə həmişə onlara minnətdar olacağını bildirir.

Eltun qarmon çalmağı da bacarır, hətta deyərdik ki, gələcəyin tanınmış qarmon ifaçılarından biri də bəlkə odur. Onun qarmonda ifa etdiyi musiqilər ətrafındakılar tərəfindən də çox sevilir. Boş zamanlarını da qarmon çalmaqla dəyərləndirən Eltun daha da gözəl ifa edə bilmək üçün əlindən gələni edir. Biz də öz adımızdan Eltuna həmişə yüksəklərdə olmasını arzu edirik.

Atası Verdiyev Mobil ticarətlə məşğuldur. Anası Verdiyeva Sevinc bağça müəlliməsidir. Eltunun bir bacısı var, Verdiyeva Ülviyyə.



# HƏSƏNOV SAMURAY

*Elmin hüdudları üfüq xəttinə oxşayır:*
*biz ona nə qədər yaxınlaşsaq, o bizdən bir o qədər uzaqlaşır.*
*Pyer Buast*



Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır.

Kiminsə həyatı boyu uşaq kimi qalmayıb, ciddi, ağıllı biri olsa dünyanın çox işinə yarayar və yaxşı vətəndaş ola bilər, amma dahi ola bilməz. Əgər siz uşaqlıqda dəcəllik hissini öldürsəniz heç vaxt müdrik insan yetişdirə bilməzsinin.

Uşaqlıq həyatın ən mühüm , ən ayrılmaz , ən unudulmaz hissəsidir.Onu ən yaxşı şəkildə yaşamaq lazımdır. Çünki uşaqlığın hər anın böyüyəndə əzbərə xatırlayırıq. Bu səbəbə görə də hər bir valideyin kimi Samurayın da ailəsi göz nuru kimi böyüdür. Onun hər istəyini ailəsi özü üçün məqsəd olaraq qəbul edir.

Həsənov Samuray Əvəz oğlu 20 noyabr 2007-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2014-ci ildə Cəbrayıl rayon Akademik M.Mehdizadə adına tam orta məktəbin 1ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 5-ci sinif şagirdidir. O, dərslərinə çox böyük həvəslə yanaşır. Boş zamanlarında tar ifa etməyi sevir. Onun ən çox sevdiyi fənn riyaziyyat, sevimli müəlliməsi isə Günel müəllimədir.Samurayın məqsədi gələcəkdə tarzən olmaqdır.O deyir ki, insan hansı peşənin yiyəsi olur- olsun əsas odu ki, öz peşəni şərəfli və ədalətli bir şəkildə icra edəsən. Yaşı az olsa da, düşüncələri çox geniş və böyük oğlandır. Onun bir çox uğurları var. Belə ki, bütün fənlər üzrə tərifnaməsi var və məktəbdə keçirilən tədbirlərdə tar ifa edib. Fərqlənən, qabaqcıl şagirdlərdən olan Samurayın ailəsi 5 nəfərdən ibarətdir.

Atası -Həsənov Əvəz Həmid oğlu 2-ci qrup Qarabağ əlilidir, işləmir.

Anası-Bayramova Şəhla Əvəz qızı , evdar xanımdır.

Qardaşı-Həsənli Dönməz və bacısı Həsənli Ayşən.

Biz də Samuraya gələcəkdə məktəbi müvəffəqiyyətlə bitirib ali məktəbə qəbul olmağı və gələcəkdə valideyinlərinə, vətəninə

# ƏHMƏDOV ELTAC

*Elm bir qıfıldır və bu qıfılı aça biləcək yeganə açar sualdır. Mömin iki halda diqqətli olmalıdır: bir qəzəbləndə gərəkdir ki, qəzəbi onu həqiqətən sapdırmasın və ikinci qəzəbi soyuduqda isə bu onu yanlışlığa sövq etməsin.*

*Cəfər Sadiq*



İnformasiya və bilik müasir dövrü səciyyələndirən ən mühüm əlamətlər kimi qəbul olunur. Lakin informasiyadan biliyə, bilikdən isə elmi biliyə gedən yol çox mürəkkəb və keşməkeşlidir. Əgər maarifçilik missiyasının əsas vəzifəsi bütün insanların bilik səviyyəsini yüksəltməkdən ibarətdirsə, elmin inkişafı ancaq məhdud sayda insanların intellektual potensialının səfərbər olunması sayəsində mümkün olur. Burada cəmiyyətin üzərinə düşən əsas vəzifə hamını yox, məhz təfəkkürünə və yaradıcılıq potensialına görə ən çox fərqlənən insanları seçmək və onların düşüncəsinin məhsulunu bütün bəşəriyyətin istifadəsinə verməkdən ibarətdir. Bu böyük vəzifənin həlli elm adamlarının özündən çox, elmi yönləndirən, təşkil edən adamlardan, daha doğrusu, dövlətlərin yeritdiyi elm siyasətindən asılıdır.

Elm zamanla qazanılan, kitabların, müəllimlərin, ətrafın vasitəsiylə əldə edilən ucalıqdır.Elmi kiçik görməmək, onu səbrlə, zəhmətlə, kitablara zaman ayıraraq əldə etmək lazımdır. Uşaqlıqdan oxumağa, öyrənməyə çalışan, kitabları çox sevən, dərslərinə həvəsli şagirdlərdən biri də Eltacdır.

Əhmədov Eltac İlkin oğlu 7 mart 2010-cu ildə Murmanski şəhərində anadan olmuşdur.2016-cı ildə Xocavənd rayon Nərimanlı kənd tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur.Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir.Eltac sinif üzrə əlaçı və fəal şagirdlərdən biridir.O, qısa müddət ərzində müəllimlərinin diqqətini çəkmiş və sevimli şagirdlərinə çevrilmişdir.Eltac bütün fənlərini sevir, lakin Azərbaycan dili, Riyaziyyat və Həyat bilgisi fənlərini xüsusi bir sevgi ilə sevir, ona bu və digər fənlərini sevdirən və ən sevimli müəllimələri isə Sevinc müəllimə və Tahirə müəllimədir. Eltacın məqsədi dərslərini əla qiymətlərlə bitirib ali məktəbə qəbul olmaqdır və həkimlik peşəsi üzrə irəliləməyi özünə yol seçmişdir.Eltac boş vaxtlarında kitab oxuyur, yeni biliklər əldə edir və qiraətlə məşğul olmağı çox sevir.Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Əhmədov İlkin Rizvan oğlu, baş aşbazdır.

Anası-Əhmədova Gülnar Nəriman qızı müəllimə kimi fəaliyyət göstərir.Eltacın bir bacısı var.

Biz də öz adımızdan Eltaca gələcək həyatında bol-bol uğurlar arzu edirik, uğurları ilə valideynlərini və müəllimlərini sevindirməsini, vətənə, millətə layiqli vətəndaş kimi yetişməsini arzulayırıq.

# MƏMMƏDOV CAVAD

*Dünyada nə qədər kitab var belə*
*Çalışıb, əlləşib gətirdim ələ.*
*Oxudum , oxudum , sonra da vardım,*
*Hər gizli xəznədən bir dürr çıxardım.*

*NİZAMİ GƏNCƏVİ*




Həyatda insan bir çox amal uğrunda çalışır. Lakin bir çox şeyi əldə etmək üçün öncəlik təhsildə, elmdə, bilikdə olmalıdır.Çünki, bütün amala, istəyə gedən yolda yolumuzu aydınlatan bizim savadımız, elmimiz və dünyagörüşümüz olur.Öz məqsədlərinə çatmaq üçün özünə yol yoldaşı olaraq biliyi, savadı,elmi seçən şagirdlərimizdən biri də Məmmədov Cavaddır..

Məmmədov Cavad Nəriman oğlu 16 sentiyabr 2006-cı ildə anadan olmuşdur. 2012-ci ildə Ağdam rayon 33 saylı köçkün tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur.Dünyaya gəlişi ilə ailəsinə xoşbəxtlik gətirən Cavad hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Cavad sinif əlaçılarından biridir.Ona demək olar ki, ona tədris olunan bütün fənlərini sevir və xüsusi bir həvəslə oxuyur.Onlar, Nəsibə müəllimə-azərbaycan dili, Sahilə müəllimə-ibtidai sinif müəlliməsi, Vüsalə müəllimə-riyaziyyat, Məlahət müəllimə-ingilis dili, Sevda müəllimə- coğrafiya, İlkin müəllim- fiziki tərbiyə, Şəhla müəllimə, Mətanət müəllimə- rus dili, Əzimova Gülnarə müəllimə-fizika, Şahmuradova Gülnarə- kimya, Məmmədova Gülnarə- həyat bilgisi və ən son olaraqda Tarix fənnini Cavada sevdirən Xumarə müəllimə.Cavad deyir ki, Xumarə müəlliməsinin sayəsində keçən il keçirilən tarix yarışmasının qalibi olub. Ona bütün fənləri sevdirən ilk növbədə müəllimləri olmuşdur, həm də valideynlərinin böyük əziyyəti olmuşdur ki, Cavadın elmə, təhsilə, savada gedən yolunda onun ən böyük dəstəkçilərindən biri və birincisi valideynləridir. O, oxuduğu müddət ərzində əlaçı olmuş və daima müəllimlərinin əziyyətini dəyərləndirən şagirdlərindən olmaq üçün çalışmışdır. Cavad gələcəkdə savadlı bir kadır olmaq üçün boş vaxtlarını da kitab oxumaqla dəyərləndirir və mütaliəni sevdiyini deyir. Boş vaxtlarında tarixi şəxslər haqqında məlumat toplamağı sevən Cavadın ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Məmmədov Nəriman, anası-Məmmədova Maya ibtidai sinif müəlliməsidir.Cavadın bir bacısı var -Məmmədova Fatimə hazırda 2-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Cavad balamızı uğurlarına görə təbrik edir, gələcək həyatında nailiyyətlərinin artmasını diləyirik.Daim ailəsinin başını uca etmək diləyi ilə.Yolun açıq olsun.

# MƏMMƏDOVA FATİMƏ

*Elm bir qıfıldır və bu qıfılı aça biləcək yeganə açar sualdır. Mömin iki halda diqqətli olmalıdır: bir qəzəblənəndə gərəkdir ki, qəzəbi onu həqiqətən sapdırmasın və ikinci qəzəbi soyuduqda isə bu onu yanlışlığa sövq etməsin.*

*Cəfər Sadiq*



Təhsilin keyfiyyəti səmərəli təhsil və təlim mühitinin yaradılması işindən xeyli asılıdır. Təhsil mühiti təlim mühiti ilə müqayisədə ümumi, mücərrəd, geniş, əhatəli olmaqla öyrənəni azad inkişaf etməyə, yaradıcı fərd olmağa həvəsləndirməli, həyatın özü olmalı, öyrənənlər həyatın içində olmalıdır. Təlim mühiti elə olmalıdır ki, şagirdlər məktəbdə həyat həqiqətlərini tapa bilmək üçün müstəqil düşünsün, qrup halında, kollektiv şəkildə əməkdaşlıq edə bilsin, qarşılıqlı hörmət və ünsiyyət şəraitində irəli sürülmüş problemləri (qoyulmuş sualları) həll edə bilsinlər. Düzgün təhsil və təlim mühiti şəraitində məktəb bütün diqqətini şagirdlərin hərtərəfli inkişafına, onların maraq və ehtiyaclarının təmin olunmasına istiqamətləndirməlidir. Belə olduqda, təhsilin məqsədi şagirdlərə biliklərin yalnız nəzəri cəhətdən deyil, praktikaya əsaslanmaqla, inkişafetdirici xarakterdə verilməsini təmin edə bilər.

Öz bacarığı , savadı, biliyi ilə seçilən və bu yolda daha da irəliləməyə çalışan şagirdlərimizdən birdə Məmmədova Fatimə balamızdır.Fatimə yaşının az olmasına baxmayarq, gələcək həyat yolunu öz savadı ilə işıqlandırmağa çalışır və bu yolda özünə kitablarını yoldaş seçib.

Məmmədova Fatimə Nəriman qızı 16 fevral 2011-ci ildə anadan olmuşdur. 2017-ci ildə Ağdam rayon 33 saylı köçkün tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Fatimə çalışqan və zəkalı qızdır, ona tədris olunan bütün fənlərini sevir.Müəllimlərinin sevimli və məsuliyyətli şagirdlərindən olan Fatimənin ən sevimli müəllimsi ilk növbədə ibtidai sinif müəllimsi olan anası Maya müəllimə, daha sonra anası qədər sevdiyi Təranə müəllimə, Lamiyə müəllimə və Bəhiyyə müəllimədir. Fatimə bütün fənləri sevir və maraqla oxuyur. Uğur və nailiyyətlərindən ən önəmlisi isə şərəf lövhəsində adının olmasıdır. Fatimənin arzusu dərslərini yaxşı oxuyub ali məktəbə daxil olmaq və hər hansısa bir peşəyə yiyələnməkdir. O, ailəsinin və müəllimlərinin əziyyətini dəyərləndirmək istəyir, deyir ki, uğurları ilə daim ailəsinin fəxri olmağı diləyir və bu yolda qarşısına məqsəd qoymuşdur ki, nə olur olsun ancaq və ancaq savad, bilik, təhsil. Fidanın kitablara , bədii ədəbiyyata, mütaliəyə çox böyük marağı var və boş vaxtlarında da ancaq kitab oxuyur.Fatimənin bu həyatda ən böyük isdəyi ali məktəbə qəbul olmaq və onun üstündə çox böyük əziyyəti olan anası Maya xanımın arzusunu yerinə yetirmək- savadlı , ali təhsilli və dünyagörüşlü biri kimi yetişməkdir.Vətəninə , millətinə layiqli övlad olmaqdır. Onun ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Məmmədov Nəriman , anası-Məmmədova Maya ibtidai sinif müəllimsidir.Fatimənin bir qardaşı var -Məmmədov Cavad hazırda 7-ci sinif şagirdidir.

Biz də öz jurnalımız adından Fatimə qızımıza bolluca uğur və nailiyyətlər arzulayırıq.Hər zaman ailənin fəxri ol.Yolun açıq olsun!

# Əliyev Murad

*Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.*
*F.Bekon*

İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda, həm gənclər üçün, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir. Güman edirəm ki, bu dönüş, yəni bu hadisə gələcək üçün çox gözəl əsasdır və bizim millətimizin, xalqımızın fiziki sağlamlığı üçün, təkcə fiziki sağlamlığı deyil, zehni sağlamlığı üçün, sağlam gənc nəsil yetirməsi üçün çox gözəl əsasdır və biz hamımız bu sahəni bundan sonra daha da inkişaf etdirməliyik.

Sağlam bədəndə sağlam ruh olar, deyib atalar. Əlbəttə ki, cismi sağlam olmayan insanın ruhu da sağlam olmaz. Buna görə də zamanın azlığından və məkandan asılı olmayaraq hər kəs mütləq şəkildə idmanla məşğul olmalıdır. Sağlam bədən sağlam düşüncə deməkdir.

Əliyev Murad Elməddin oğlu 2007-ci ildə dünyaya göz açıb. 2013-cü ildə Ağdam rayon 149 saylı məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 6-cı sinif şagirddir. Çox çalışqan və bacarıqlı şagirddir. Dərslərinə çox böyük məsuliyyətlə yanaşır. Bütün fənlərdən yaxşı qiymətlər alır. Ailəsi 3 nəfərdən ibarətdir.

Əliyev Murada həyat yolunda müvəffəqiyyətlər və uğurlar arzu edirik. Gələcəyin parlaq olsun, Murad.

# Tağızadeh Rəhimə

*Elmin hüdudları üfüq xəttinə oxşayır:*
*biz ona nə qədər yaxınlaşsaq, o bizdən bir o qədər uzaqlaşır.*
*Pyer Buast*




Elmin əsl məşğuliyyət sahəsi təbiət hadisələridir. Burada təbiət hadisələrini ən ümumi əhatəsiylə qəbul edirik. Yalnız fiziki faktları deyil, sosioloji, psixoloji, iqtisadi, mədəni və s. məlumat sahələrinin hamısı təbiət hadisələridir. Xülasəylə, insanla və ətrafıyla əlaqədar olan hər fakt bir təbiət hadisəsidir. İnsanoğlu, bu faktları bilmək və öz faydasına istiqamətləndirmək üçün yaranmasından bəri tükənməz bir ehtirasla və səbirlə məşğul olmaqdadır.

Tağızadeh Rəhimə Pərviz qızı 11aprel 2010-cu ildə Bakı şəhərində anadan olub. 2016-cı ildə Zabrat qəsəbəsində 71 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 3-cü sinif şagirdidir. Dərslərə başladığı ilk gündən çox fəal və istedadlı şagird olmağı ilə seçilir. Rəhimə nümunəvi və əlaçı şagirdlərdən biridir. Çox güclü yaddaşa və istedada malikdir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə Riyaziyyat fənnidir. Rəhimənin riyazi hesablamaları çox sürətli etmə qabiliyyəti vardır. Rəhimə ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir və onlara hörmət bəslədiyini vurğulayır. Ən çox sevdiyi müəllimə isə Pərvanə müəllimədir. Ailəsi 6 nəfərdən ibarətdir.

Atası Tağızadeh Pərviz Mirzəbala oğlu 23 iyul 1971-ci ildə dünyaya göz açıb, mebel ustasıdır.

Anası Tağızadeh Xalidə Rafiq qızı 15 iyul 1981-ci ildə anadan olub, evdar xanımdır.

Bacısı Bahar Tağızadeh, Zöhrə Tağızadeh.

Qardaşı Şahin Tağızadeh.

Biz də öz jurnalımız adından Rəhiməyə həyatında uğurlar və müvəffəqiyyətlər arzu edirik. Yolun açıq olsun!

# Sadıqova Xədicə

*“Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz”.*
*Heydər Əliyev*




Hədəf və məqsədi bəlli olan bir elm, sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz bir xəzinədir. Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində, hətta daha sonraları da bir şirin su qaynağı kimi daim ziyarət edilir və xeyrə vəsilə olurlar. Hər bir insanın qədr və qiyməti öyrəndiyi elmin məzmun və zənginliyi ilə ölçülür. İrqindən, dinindən, yaşından asılı olmayaraq savadlı olan şəxsə hər kəs hörmət edir.

Çalışqanlığı, məsuliyyəti və zəhməti ilə əvvəlcə müəllimlərinin sevgisini, daha sonra onu əhatə edən insanların hörmətini qazananlardan biri də Sadıqova Xədicədir.

Sadıqova Xədicə Qafar qızı 18 aprel 2008-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda həmin məktəbin 5-ci sinfində oxuyur. Yaxşı oxuyan, məsuliyyətli və çox çalışqan şagirddir Xədicə. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Onun ən çox sevdiyi fənlər isə riyaziyyat, tarix və ədəbiyyat fənləridir. O dərs ilində yüksək qiymətlər aldığı üçün dəfələrlə fərman və diplomlara layiq görülüb. Xədicə öz fənn müəllimlərini çox sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Elə özü də gələcəkdə müəllimləri kimi savadlı, şagirdləri tərəfindən sevilən bir müəllimə olmaq arzusundadır. Boş zamanlarında ən çox sevdiyi məşğuliyyəti kitab oxumaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Biz də tutduğu yolda Xədicəyə uğurlar arzu edirik. Yolun açıq olsun!

# Hümbətli Ahu

***«Təhsil - istənilən həyat situasiyalarında düzgün hərəkət etmək qabiliyyətidir».***

***D.Karneqi***




Təhsil insan həyatının ən vacib amilidir. Bu hər zaman belə olub. Həyatı, baş verən hadisələri öyrənmək, onları düzgün araşdırmaq, çətin vəziyyətdən çıxmaq, vacib olanı düzəltmək, hiyləni başa düşmək, vuruşmağın sirrlərini bilmək, gözəl danışmaq, adamlar arasında sayılıb-seçilmək - bütün bunların yolunu yalnız və yalnız elm göstərməyə qadirdir. Elmsizlik, cəhalət, dibi görünməyən uçurum, aclıq və səfalət, əliəyrilik, özündən müstəbehlikdən başqa bir şey deyildir.

Elm ucu-bucağı görünməyən sərhədsiz ümmandır ki, bu ümmandan öz payının almağa çalışanlardan biri də Hümbətli Ahu Telman qızıdır. Ahu 5 mart 2009-cu ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə Xocavənd rayon Nərimanlı kənd tam orta məktəbin 1-ci sinfinə qəbul olub. Hal-hazırda isə elə həmin məktəbin 4-cü sinif şagirdidir. Məsuliyyətli və çalışqan, nümunəvi davranış yiyəsi bir şagirdir. Ahu bütün fənlərdən yaxşı qiymətlər alır. Dərs əlaçısıdır. Gələcəkdə vətənə, dövlətə xeyirli bir həkim olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Hümbətli Ahu həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.

# Nağıyeva Gülgəz

*Sən ancaq öyrənməklə ucalarsan.*

*Əhvədi Marağai*

Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycanda da təhsilin inkişafı və xalqımızın gələcəyi üçün sağlam vətəndaşların yetişdirilməsi ümummilli məsələyə çevrilmişdir. Bu, ilk növbədə dövlətin müəyyənləşdirdiyi təhsil strategiyasının tələbidir. Hansı sahədə fəaliyyət göstərməyimizdən asılı olmayaraq hər birimiz bu ali məqsədin reallaşmasında yaxından iştirak etməliyik. Çünki xalqımızın gələcəyi və sivilizasiyalı dünyaya inteqrasiyasının yeganə yolu məhz təhsilin inkişafından keçir.

Gələcəkdə xalqa, millətə faydalı olmaq, vətəninə layiq biri kimi yetişmək üçün var gücü il çalışıb, elm, bilik, savad sahibi olmağa çalışanlardan biri də Nağıyeva Gülgəzdir.

Nağıyeva Gülgəz Rəşid qızı 2012-ci ildə Ağdam rayonunda anadan olub. 2016-cı ildə Şuşa şəhər 9 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 3-cü sinif şagirdidir. Məsuliyyətli və çalışqan, nümunəvi davranış yiyəsi bir şagirddir. Bütün dərslərində yaxşı qiymətlər alır. Onun ən çox sevdiyi fənlər riyaziyyat və ingilis dili fənləridir. Gülgəz dəfələrlə fəxri fərmanlara layiq görülmüş bir şagirddir. Onun incəsənətə də böyük marağı var. Boş zamanlarında rəsm çəkməyi çox sevir. Ailəsi 5 nəfərdən ibarətdir.

Nağıyeva Gülgəzə tutduğu yolda bol-bol uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.

# SÜLEYMANLI AYSEL

*“Təhsil - istənilən həyat situasiyalarında düzgün hərəkət etmək qabiliyyətidir.”*

***D.KARNEQİ***



Süleymanlı Aysel Elvin qızı 11 noyabr 2011-ci ildə Ağdam rayonunda anadan olmuşdur.2017-cı ildə Ağdam rzyon 33 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. Hal-hazırda 2-ci sinif şagirdidir.Aysel məsuliyyətli və çalışqan , nümunəvi davranış sahibi olan bir şagirddir. Onun arzusu gələcəkdə hansı peşənin yiyəsi olur -olsun əsas məqsədi sahib olduğu peşəni şərəflə və layiqincə yerinə yetirməkdir. Gələcəkdə vətənə , dövlətə xeyirli bir vətəndaş olmaq arzusundadır.Ayselin ən sevdiyi fənn Azərbaycan dili , ən sevimli müəllimәsi isə Maya müəllimədir.O , əldə etdiyi uğurlara görə bütün müəllimlərinə öz təşəkkürünü bildirir.Aysel oxuduğu illərdə sinif əlaçısı olmuşdur və ən sonda da ilin əlçısı seçilmişdir.Boş vaxtlarını dərs oxumaq və şəkil çəkməklə dəyərləndirən Ayselin ailəsi 5 nəfərdən ibarətdir.

Atası-Süleymanov Elvin Qaçay oğlu, futbol klubunda işləyir.

Anası-Əliyeva Aytən Allahverdi qızı, evdar xanımdır.

Ayselin iki bacısı var.Süleymanova Rəhma və Zəhra.

Biz də öz jurnalımız adından Aysələ həyat yolunda bol-bol uğurlar arzu edirik , vətənə , valideynlərinə layiqli övlad olmağı diləyirik.

Təhsil insan həyatının ən vacib amilidir.Bu hər zaman belə olub . Həyatı , baş verən hadisələri öyrənmək , onları düzgün araşdırmaq , çətin vəziyyətdən çıxmaq , vacib olanı düzəltmək , hiyləni başa düşmək vuruşmağın sirlərini bilmək , gözəl danışmaq , adamlar arasında sayılıb -seçilmək -bütün bunların yolunu yalnız və yalnız elm göstərməyə qadirdir.

Kitab olmayan ev ruhdan ayrılan bədənə bənzər.İnsanın öz düşüncəsi ən etibarlı köməkdir.Elm ucu -bucağı görünməyən sərhədsiz ümmandır ki, bu ümmandan öz payını almağa çalışanlardan biri də Süleymanlı Ayseldir.

# CABBAROVA LƏMAN

*"Təhsil - istənilən həyat situasiyalarında düzgün hərəkət etmək qabiliyyətidir."*

***D.KARNEQİ***



Öyrənmək gözəlliyin sorağında gəzmək kimidir.Bu gözəlliyi kəşf edə bilmək üçünsə daşlı-kəsəkli yollarda addımlamalı, bir çox çətinliyə sinə gərməlisən.

Təhsil insan həyatının ən vacib amilidir.Bu hər zaman belə olub. Həyat, baş verən hadisələri öyrənmək, onları düzgün araşdırmaq, çətin vəziyyətdən çıxmaq, vacib olanı düzəltmək, hiyləni başa düşmək, gözəl danışmaq, adamlar arasında sayılıb-seçilmək-bütün bunların yolunu yalnız və yalnız elm qadirdir.Kiçik yaşlı Ömər balamızda, yaşının az olmasına baxmayaraq bunları derk edir və elmin, savadın dəyərini başa düşür. Bilir ki, təhsilli insanın dünyagörüşü, bacarığı, qabilliyyəti, həyata baxışı hər zaman digərlərindən fərqli olur.Buna görə də o, elm, təhsil yolunda irəliləməyi özünə məqsəd seçmişdir.

Cabbarova Ləman Eldəniz qızı 13 may 2005-ci ildə dünyaya göz açmışdır.Dünyaya gəlişi ilə anasına, atasına sevinc bəxş edən Ləman balamız ailəsinin göz nuru olmuşdur.Hər kəsin sevincinə səbəb olan Ləman balamız 15 sentiyabr 2011-cı ildə Ağdam rayon 149 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoymuşdur.Hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Ləman elə ilk gündən müəllimələrinin sevgisini və rəğbətini qazanmışdır. Dərslərinə olan marağı , çalışqanlığı ilə digər yoldaşlarından fərqlənir və bir çox şagirdlərdən fərqli olaraq keçdiyi bütün fənləri sevdiyini və hamısını böyük həvəslə oxuduğunu deyir.O, əlaçı şagirdlərdən biridir. Ləmanın ən böyük dəstəkçiləri valideynləridir, onlar çalışır ki, Ləmanın verdiyi hər qərarda onun yanında olsunlar və əllərindən gələni ondan əsirgəməsinlər və hər bir valideyn kimi onlar da öz övladlarının uğurlarını görmək istəyirlər. Arzu edirlər ki, Ləman universitetə daxil olub və qabaqcıl tələbələrdən olsun. O, boş vaxtlarında həm dərsləri ilə məşğul olur və musiqi dinləyir. Biz də öz jurnalımız adından Ləman balamıza gələcək həyat yolunda bolluca uğurlar diləyir və nailiyyətlərinin artmasını arzu edirik.Yolun hər daim açıq olsun!

# Yusifov Elnur

*Sən ancaq öyrənməklə ucalarsan.*

*Əhvədi Marağai*



Elm - təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını və obyektiv aləmə təsiri üsullarını öyrənən (meydana çıxaran) biliklər sistemi və bu biliklərin ayrıca sahəsidir. İnsan biliklərinin müəyyən bir sahəsi. Məsələn, elmlə məşğul olmaq, həyatını elmə sərf etmək, oxumaqla əldə edilən bilik, məlumat. Bəzən savad, məlumat mənasında. Elmilik - elmi olma, elmə əsaslanma, elmi mahiyyət daşıma. Məsələn, nəticələrin elmiliyi, sübatların elmili-yi. Elmli - təhsil görmüş, təhsil almış, təhsilli, oxumuş, ziyalı; insanın əməli və nəzəri fəaliyyətinin spesifik sahəsi; ictimai şüur formalarından biri. Elmin cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə təsirinin sosial nəticələri mühümdür. Elm həmçinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir.

Yusifov Elnur Ceyhun oğlu 31 oktyabr 2009-cu ildə Bakı şəhəri Biləcəri qəsəbəsində dünyaya göz açıb. Elnur 2016-cı ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinifində təhsil almışdır. Hal-hazırda isə elə həmin məktəbin 3-cü sinif şagirdidir. O, məktəbin ən qabaqcıl və nümunəvi şagirdlərindən biridir. Ona tədris olunan bütün fənləri sevir, xüsusilə də riyaziyyat və informatika fənnidir. Elnur ona dərs deyən bütün müəllimlərini sevir və onlara böyük hörmət bəslədiyini vurğulayır və bu sırada Ulduz müəllimə və Rəksanə müəllimənin adını qeyd edib. Dərs ilini əla qiymətlərlə bitirdiyi üçün dəfələrlə fəxri fərman və tərifnamələrlə təltif olunub. Elnur dərslərindən əlavə boş vaxtlarında kitab oxuyur . O, bununla dünya görüşünü və təfəkkürünü inkişaf etdirir. O, savadlı, çalışqan uşaq olduğu qədər həmdə xeyirxah və köməksevər uşaqdır. Elnurun arzusu gələcəkdə hüquqşünas olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Yusifov Ceyhun Mehman oğlu 1983-cü ildə anadan olub.

Anası Yusifova Gülnarə Elşən qızı 1987-ci ildə dünyaya göz açıb, işləmir.

Bacısı Yusifova Aynur 2007-ci ildə anadan olub, məktəblidir, 5-ci sinif şagirdidir.

Biz də öz redaksiyamız adından Elnura gələcək həyatında bol-bol uğurlar arzu edirik. Yolun açıq olsun!

# Əsgərova Günel

*Hər birimiz müəllimin hərarətli qəlbinin bir zirvəsi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə dicdanla işləməyi müdrikliklə və səbrlə bizə öyrətmiş və öyrədir.*
*Heydər Əliyev*



İnsan qəlbində iki qüvvə mübarizə aparır. Bunlardan biri ağıl və kamal, digəri isə nəfs və tamahdır. Ağıl və kamala malik insanlar həmişə öz nəfslərinə qalib gəlir, mənən yüksəlirlər. Belə insanlar həmişə yaddaşlarda qalır və xoş sözlərlə anılırlar.

Bir insan başqasına hörmət etdikdə, ona “müəllim” deyə müraciət edir. Bu hörmət və izzət bu adın nə qədər şərəfli olmasından xəbər verir. Bu titulu öz adlarının yanına ömürlük həkk etdirən insanlar isə həmişə hörmət və sayğıya sahibdirlər. Müəllim adını uca tutan insanlardan biri də Günel müəllimədir.

Əsgərova Günel Akif qızı 3 aprel 1983-cü ildə Tərtər rayonunda anadan olmuşdur. Orta təhsilini Rafiq Nuriyev adına 6 saylı tam orta məktəbdə almış, 2000-ci ildə məktəbi bitirmişdir. Daha sonra elə həmin il Azərbaycan Beynəlxalq Universitetin ibtidai təhsilin metodikası və pedaqoqikası ixtisasına daxil olmuşdur. 2004-cü ildə ali təhsilini başa vurmuşdur. İnistitutu bitirdikdən sonra müəllim kimi fəaliyyət göstərən Günel müəllimə, 2006-cı ildən bəri Ağdam rayon 149 saylı köçkün tam orta məktəbində ibtidai sinif müəlliməsi kimi işləyir. Onun 13 illik pedaqoji stajı vardır. Müəllim kimi fəaliyyət göstərdiyi illərdə o şagirdlərinə müəllimlə olmaqla yanaşı, ana olmuşdur. Onların sevincinə birgə sevinir, problerini həll etmək üçün əlindən gələni edir. Şagirdlərinin mükəmməl şəkildə elmə yiyələnməsi üçün onlara yüksək səviyyədə dərs keçir. Yetişdirdiyi şagirdləri də onu çox sevir, hər zaman ona hörmət bəsləyir və minnətdarlıq hissi duyurlar.

Bu cür zəhmətli, bir o qədər də şərəfli peşəyə yiyələnən Günel müəlliməyə gələcək həyatında və kariyerasında müvəffəqiyyətlər diləyirik. Bir müəllimə üçün ən böyük sevinc olan şagirdlərinin uğurlarını görməyi arzu edirik.





IX-XII əsrlərə aid “Gülüstan” qalası.
Şamaxı rayonu.



*“Çağdaş Təhsil” xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir, daha çox təhsil və bu sahədəki yeniliklər haqqında məlumat verir.*

*Xüsusi buraxılış olan jurnalda arzu edən şəxslər, xüsusilə qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri ixtisas sahibləri, həmçinin yüksək bal toplayan məzunlar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti, şeir yazmaq və demək bacarığı olan şagirdlər də çıxış edə bilər.*

*Jurnal Şəhid övladlarına, fiziki və əqli qüsurlu, hər iki valideynini itirən şagirdlərə pulsuzdur.*